№ 23 (1018) 7-13 iyun 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Bu gün Azərbaycanda bütün infrastruktur ən yüksək səviyyədədir



Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi inkişafın mühüm elementlərindən birini təşkil edən yol infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində tarixi layihələr icra olunub. Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən son illərdə kənd yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub. Bu cür layihələrdən biri də Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yoludur. Bu yolun inşasına Prezident İlham Əliyevin bu il aprelin 30-da imzaladığı Sərəncamla başlanılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonuna səfəri çərçivəsində Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolunun açılışında iştirak edib.

12 min nəfər əhalinin yaşadığı 5 məntəqəni birləşdirən Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolunun ümumi uzunluğu 14 kilometr, hərəkət hissəsinin eni isə 6 metrdir. Bu yol sakinlərin rahat gediş-gəlişini təmin edəcək, həmçinin Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolu vasitəsilə respublikamızın istənilən istiqamətinə hərəkət etməyə imkan verəcək.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonunda "Region Agropark"ın açılışında iştirak edib.

Son illərdə sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, icra olunan dövlət proqramları ölkəmizin sosial-iqtisadi inkişafının dinamikliyini göstərən amillərdəndir. Bu gün Azərbaycanda sahibkarlar dövlət tərəfindən həm mənəvi, həm siyasi, həm də iqtisadi dəstək alır. Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan düzgün istifadə mexanizmlərini də üzə çıxarır. Bu gün, həmçinin güzəştli kreditlər hesabına maliyyələşdirilən, müasir texnologiyaların tətbiqinə əsaslanan layihələrdən olan və ölkə əhalisinin keyfiyyətli ərzaq məhsullarına tələbatının ödənilməsinə xidmət edən müasir aqroparkların yaradılması xüsusi əhəmiyyətə malikdir. Belə aqroparklardan biri də Goranboy rayonundakı "Region Agropark"dır.

İqtisadiyyat naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri İnam Kərimov və aqroparkın direktoru Sənan Qədimov bildirmişlər ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində müxtəlif bölgələrdə ayrı-ayrı istehsal sahələri istifadəyə verilir, əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. "Region Agropark" da belə müəssisələrdən biridir. Ümumi dəyəri 30 milyon manat olan aqroparkın yaradılmasına 6 milyon manat dövlətin güzəştli krediti verilib. Belə ki, Goranboy rayonunda uzun müddət istifadəsiz qalmış və yararsız hala düşmüş 3500 hektar, Samux rayonunda isə 1200 hektar qış otlaq sahələrinin təyinatı Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilib. Amerika və Türkiyədən alınan avadanlıqlarla təchiz olunmuş taxıl anbarı kompleksi tam avtomatlaşdırılmış qaydada fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, hazırda respublikanın 30 rayonu üzrə 191,8 min hektar ərazidə ümumi dəyəri 1,4 milyard manat olan 45 aqroparkın yaradılması işləri davam etdirilir. İndiyə qədər dövlət dəstəyi hesabına aqroparkların yaradılması üçün ümumilikdə 311,8 milyon manat, o cümlədən su, qaz, elektrik və yol çəkilişi, meliorativ tədbirlər və digər infrastruktur işlərinə 204,2 milyon manat dövlət əsaslı investisiya qoyulub. Ümumi dəyəri 400 milyon manatdan çox olan 15 aqroparkın yaradılmasına 110 milyon manatadək dövlətin güzəştli kreditləri ayrılıb və 14 aqropark üzrə dəyəri 565,5 milyon manat olan 24 layihəyə investisiya təşviqi sənədi verilib. Artıq Xaçmaz, Şəmkir, Cəlilabad və Goranboyda yaradılan aqroparklarda birinci mərhələ üzrə işlər başa çatdırılıb.

Həyata keçirilən bu layihənin ikinci mərhələsi çərçivəsində ərazilərin hazırlanması məqsədilə mövcud iri yarğanlar torpaqla doldurulacaq, ərazi kol-kosdan təmizlənəcək, əkinə hazırlıq işləri aparılacaq, 2700 hektar sahədə Amerika istehsalı olan 31 müasir pivot suvarma sistemi qurulacaq və meyvə bağlarının sahəsi 200 hektara çatdırılacaq.

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə bildirmişdir ki, aqroparkda zəruri infrastrukturun yaradılması məqsədilə qoyulmuş 35 milyon manat dövlət əsaslı investisiya hesabına ərazini öz axını ilə suvarma suyu ilə təmin etmək üçün Şəmkir-Samux-Goranboy magistral suvarma kanalı üzərində baş suqəbuledici qurğu, nəqledici boru kəməri, sututumu 100 min kubmetr olan dəmir-beton üzlüklü hovuz, sututumu 300 min kubmetr olan torpaq əsaslı hovuz inşa olunub. Bundan əlavə, 35/10 kV-lıq yarımstansiya da inşa edilib, Lək yarımstansiyasından 14 kilometr uzunluğunda yüksək gərginlikli elektrik xətti, Qazıməmməd-Qazax magistral qaz kəmərinin "Ağasıbəyli" Qazpaylayıcı Stansiyasından 12 kilometrlik qaz xətti çəkilib və Fəxralı kəndindən əraziyə 9,4 kilometr uzunluğunda yeni asfalt yol salınıb.

Sonra Azərbaycan Prezidenti aqroparkın kollektivi ilə görüşmüşdür.

**Prezident İlham Əliyevin çıxışından:**

- Goranboy rayonunun iqtisadi potensialının möhkəmlənməsində bu aqroparkın çox böyük rolu olacaq. Dövlət öz dəstəyini növbəti dəfə göstərmişdir. Bildiyiniz kimi, Azərbaycanda aqroparkların yaradılması dövlət xətti ilə həyata keçirilir. Dövlət özəl sektora daim diqqət və dəstək göstərir. Vaxtilə istifadəsiz qalmış bu ərazidə dövlət xətti ilə böyük infrastruktur layihələri icra edilmişdir. Yollar, qaz, elektrik və su xətləri çəkildi, suvarma işləri görüldü, dövlət xətti ilə ən müasir texnika alındı. Bu texnikanın bir hissəsi burada nümayiş etdirilir. Bu, dünyanın ən aparıcı şirkətinin texnikasıdır. Dövlət xətti ilə 40-dan çox texnika gətirilmiş və bu aqroparka lizinqə verilmişdir.

Dövlət tərəfindən bu aqroparkın yaradılmasına 35 milyon manat vəsait ayrılmışdır. Bildiyiniz kimi, bu aqroparkın ərazisi 4700 hektardır və bu torpaqlardan istifadə olunmurdu. İndi isə burada gözəl işlər görülüb, özəl sektor öz tərəfindən vəsait qoyubdur. Mənə verilən məlumata görə, özəl investisiyaların həcmi 30 milyon manatdır. Beləliklə, biz görürük ki, dövlət-özəl sektor partnyorluğu gözəl nəticələrə gətirib çıxarır. Böyük investisiyalar qoyulur və bu investisiyaların böyük səmərəsi olacaqdır. Burada yüzlərlə iş yeri yaradılır, yerli istehsal təşkil olunur. Burada bir çox kənd təsərrüfatı məhsulları yetişdiriləcək və əminəm ki, ölkə bazarına, xarici bazarlara çıxarılacaqdır.

Bütövlükdə bu gün Azərbaycanda aqroparkların yaradılması geniş vüsət almışdır. Nəzərdə tutulan 45 aqroparkdan 4-ü artıq istifadəyə verilib.

Məhsuldarlıq da çox yüksəkdir. Arpada hektardan məhsuldarlıq 50 sentnerdir, hesab edirəm ki, buğda da ən azı bu qədər olmalıdır. Yəni, burada ən müasir texnologiyalar tətbiq olunur, o cümlədən müasir suvarma texnologiyaları, pivot suvarma sistemləri quraşdırılır. Bu sistemlərin tətbiqi Azərbaycanda geniş vüsət alacaq. Bu məqsədlə artıq bu sistemlərin istehsalı ölkəmizdə təşkil edilibdir ki, xaricdən asılılıq azalsın və xaricə valyuta getməsin.

Beləliklə, aqroparkların yaradılması və fəaliyyəti nəticəsində ərzaq təhlükəsizliyi məsələləri öz həllini tapacaq, işsizliyin azaldılması ilə bağlı əlavə addımlar atılacaq, yerli istehsal inkişaf edəcək, ixrac imkanlarımız genişlənəcək. Çünki burada yetişdiriləcək məhsullar ixracyönümlü məhsullardır. Ölkəmizdə kənd təsərrüfatı ilə bağlı siyasətimiz uğurla icra ediləcəkdir. Kənd təsərrüfatına böyük diqqət göstərilir. Azərbaycanda kənd təsərrüfatı prioritet sahələrdən biridir. Bundan sonra biz bu siyasəti ancaq ən müasir texnologiyalar və elmi əsaslar üzərində aparacağıq.

Bu aqroparkın yaradılması məni çox sevindirir. Çünki bu gün biz siyasətimizin real nəticələrini görürük. Bu, bir daha göstərir ki, biz düşünülmüş siyasət aparırıq. İstər sənaye, istər kənd təsərrüfatı istehsalı, istərsə də infrastruktur layihələrinin icrası ilə bağlı işlər ən yüksək səviyyədədir. Azərbaycanda nəinki yol infrastrukturu, bütün infrastruktur ən yüksək səviyyədədir, o cümlədən Goranboy rayonunda. Baxın, son illər ərzində nə qədər böyük işlər görülmüşdür. Goranboy rayonunda bir neçə yol layihəsi icra edilmişdir. Onlardan ikisi bu gün açılır. Bütövlükdə bu layihələrin icrası nəticəsində artıq rayon əhalisinin 60 faizi təmir edilmiş yollarla təmin edilir. Gələn il bir yol layihəsi icra ediləcək. O da 15 məntəqəni əhatə edəcək. Beləliklə, demək olar ki, Goranboy rayonunun əsas yol infrastrukturu tamamilə yenidən qurulacaqdır. Goranboy rayonunda elektrik xətləri çəkilib, elektrik təchizatı həll olunub, iki yarımstansiya inşa edilib, biz onlardan birini bu gün istifadəyə verəcəyik. Ev təsərrüfatlarının 95 faizi qazlaşdırılıb, içməli su təchizatı məsələsi hələ 4 il bundan əvvəl öz həllini tapıb. Mən sonuncu dəfə burada olarkən biz içməli su layihəsini istifadəyə verdik. Suvarma ilə bağlı işlər yüksək səviyyədədir. Bax, bu aqroparkda 4700 hektar torpaq suvarma suyu ilə təmin ediləcəkdir.



Şəmkirçay su anbarının tikilməsi nəticəsində yaranmış o süni gölün potensialından istifadə edirik. Goranboy rayonunda əlavə 8 min hektar, eyni zamanda, Samux rayonunda bir neçə min hektar torpaq su ilə təmin ediləcəkdir. Yəni, Goranboy rayonunun timsalında görülən işlərin mahiyyəti və əhəmiyyəti budur. İnfrastruktur layihələri, sosial infrastrukturla bağlı layihələr, demək olar ki, tam icra edilib. Goranboy rayonunda 40-dan çox məktəb təmir edilib və tikilibdir. Hazırda 130 çarpayılıq mərkəzi rayon xəstəxanasının tikintisi gedir, bu ilin sonuna qədər istifadəyə verilməlidir. Xalça fabriki tikilir, yenə də bu ilin sonuna qədər istifadəyə verilməlidir. Yəni, bütün bu işlər onu göstərir ki, ölkəmiz uğurla, inamla inkişaf edir. Bütün regionlar inkişaf edir. Regionların kompleks inkişaf konsepsiyası həyatda öz əksini tapır. İş yerləri, yerli istehsal yaradılır. Bir daha deyirəm ki, dünyanın bir nömrəli şirkətinin texnikası bu gün Goranboydadır, ölkəmizin hər bir yerindədir. Biz son illər ərzində kənd təsərrüfatı üçün minlərlə texnika almışıq və yenə də alacağıq. Bir daha demək istəyirəm ki, bu aqroparkın yaradılması bizim uğurlu siyasətimizin təzahürüdür, onun göstəricisidir.

Qeyd edək ki, aqroparkın texnika ilə təchizatına xüsusi diqqət yetirilib. Belə ki, "Aqrolizinq" ASC-dən uzunmüddətli lizinq əsasında Amerika istehsalı olan 20 adda 41 "John Deere" və Türkiyə istehsalı olan müxtəlif kənd təsərrüfatı təyinatlı texnika və aqreqatlar alınaraq istehsal prosesinə cəlb edilib.

Konkret olaraq bu aqroparkda ilkin hesablamalara görə ildə 600 milyon manatdan çox kənd təsərrüfatı məhsullarının istehsalı planlaşdırılır.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonunda Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışını edib.

Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun inşası Prezident İlham Əliyevin 2017-ci ildə imzaladığı Sərəncama əsasən aparılıb. İnşaat işləri zamanı bütün texniki tələblərə tam riayət olunub. Bu yol 15 min nəfər əhalinin yaşadığı 15 məntəqəni birləşdirir.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonunda hər biri 40 meqavolt amper gücündə olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq 2x40 MVA gücündə "Dəliməmmədli" yarımstansiyasının açılışında iştirak edib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev dövlətimizin başçısına yarımstansiya barədə məlumat vermiş, bildirmişdir ki, bu yarımstansiyanın genişləndirilərək əsaslı şəkildə yenidən qurulması rayonun keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik təchizatını tam formalaşdırmağa imkan verir. "Dəliməmmədli" yarımstansiyası vasitəsilə Dəliməmmədli şəhərinin və ətraf 21 yaşayış məntəqəsinin, o cümlədən 35 kilovoltluq "Azad" hava xətti üzərində olan 35/10 kilovoltluq "Azad" və 35/10 kilovoltluq "Alıuşağı" yarımstansiyalarının elektrik enerjisi ilə təchizatı həyata keçirilir. Yarımstansiyadakı 110 kilovoltluq açıq paylayıcı qurğu müasir tipli 7 eleqaz açarla təchiz edilib.

Prezident İlham Əliyevə 40 meqavolt amper gücündə olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq "Kürəkçay" yarımstansiyası barədə də məlumat verilmişdir.

* * * *

İyunun 5-də Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 kilometrlik hissəsinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Bu gün dünyada su ehtiyatlarının rolu və əhəmiyyəti getdikcə artır. Bu məsələ ərzaq təhlükəsizliyinin təmin edilməsində özünü daha qabarıq büruzə verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə bu istiqamətdə çox mühüm layihələr icra olunub, böyük uğurlar qazanılıb. Bu gün Azərbaycanda bu sahədə mövcud problemləri həll etmək və qarşıda duran strateji məqsədə çatmaq üçün elmi əsaslara söykənən təhlil aparılaraq mühüm tədbirlər həyata keçirilir. Son illərdə ən böyük layihələrdən olan, strateji əhəmiyyəti və kapital qoyuluşu ilə seçilən Taxtakörpü və Şəmkirçay su anbarlarının tikintisi başa çatdırılıb. Bununla da minlərlə hektar torpaq sahəsinin suvarılmasına şərait yaranıb.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına Şəmkirçay su anbarı və Şəmkir-Samux-Goranboy magistral suvarma kanalı kompleks layihəsi barədə məlumat vermiş, bildirmişdir ki, ötən əsrin 80-ci illərində inşa edilmiş bu suvarma kanalının birinci növbəsinin davamı olaraq uzunluğu 27,95 kilometr olan ikinci növbəsinin tikintisinə 2015-ci ildə başlanılıb. Bu kanalın tikintisi ilə su mənbəyi işğal zonasında qalmış Goranboy rayonunun 8293 hektarı yeni suvarılacaq torpaq olmaqla, ümumilikdə 26584 hektar torpaq sahəsi suvarma suyu ilə təmin ediləcək.




Hazırda su anbarından Şəmkir şəhərinə içməli su verilir, Gəncə şəhərinə və Samux rayonunun Nəbiağalı qəsəbəsinə isə içməli su xətti hazır olduqdan sonra suyun verilməsi təmin ediləcək. Şəmkirçay su anbarı istifadəyə verildiyi vaxtdan bu il yanvarın 1-dək oraya yığılan 740 milyon kubmetr su hesabına Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarının 43 min hektara yaxın əkin sahələrinin su təminatı yaxşılaşdırılıb, Şəmkir, Goranboy və Göygöl rayonlarının 4940 hektar, eləcə də "Şəmkir Aqropark"ın 543 hektar yeni suvarılacaq sahələri suvarma suyu ilə təmin edilib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Naftalan Şəhər Mərkəzi Xəstəxanasının açılışında iştirak edib.

Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına bu tibb müəssisəsində yaradılan şərait barədə məlumat vermişdir, bildirmişdir ki, 60 çarpayılıq Naftalan Şəhər Mərkəzi Xəstəxanasının inşasına 2015-ci ildə başlanılıb və 2018-ci ilin mayında tikinti işləri başa çatdırılıb. Şəhər Mərkəzi Xəstəxanasının tikintisi Prezident İlham Əliyevin 2013-cü və 2018-ci illərdə imzaladığı sərəncamlara əsasən aparılıb. Xəstəxana 1,2 hektar ərazidə yerləşir. Tikintinin ümumi sahəsi 8 min kvadratmetrdən çoxdur. Xəstəxanada müvafiq şöbələr yaradılıb. Bu müəssisənin laboratoriya şöbəsi ən müasir avadanlıqla təchiz olunub. Bu da laborator müayinələri yüksək keyfiyyət, dəqiqlik və qısa müddətə aparmağa imkan verir.

Xəstəxana binası ilə tanışlıqdan sonra Prezident İlham Əliyev səhiyyə müəssisəsinin kollektivi ilə görüşmüşdür.

Dövlətimizin başçısı görüşdə çıxış etmiş, demişdir:

- Bu xəstəxananın tikintisi mənim təşəbbüsümlə həyata keçirildi. Naftalan şəhərinin müasir tibb ocağı olmalı idi və şadam ki, biz buna nail olduq. Həm xarici görünüşü, həm də daxili tərtibatı gözəldir və əlbəttə ki, şərait də yaxşıdır. Bütün lazımi avadanlıqlar var, ən yüksək standartlar tətbiq olunur, ölkəmizin hər bir yerində belə gözəl xəstəxanalar tikilir. Burada yüksək tibbi xidmət göstərmək üçün bütün şərait yaradılıb. On iki şöbə var. Demək olar ki, bütün şöbələr fəaliyyət göstərəcək. Həm şəhər sakinlərinə, həm də Naftalana gələn qonaqlara yüksək xidmət göstəriləcəkdir. Bu xəstəxananın tikintisi son illər ərzində səhiyyə sahəsinə ayrılan diqqətin və qoyulan vəsaitin təzahürüdür.

Son 15 ildə 600-dan çox tibb müəssisəsi yaradılıb, yenidən tikilib və ya əsaslı təmir olunub. Biz demək olar ki, ölkəmizin hər bir yerində müasir tibb mərkəzlərinin yaradılmasına nail olduq.

Bu ilin Dövlət İnvestisiya Proqramında 6 şəhər xəstəxanasının açılışı nəzərdə tutulur. Onların sırasında birinci Naftalan xəstəxanasıdır. Ümid edirəm ki, ilin sonuna qədər digər beş şəhərdə də xəstəxanaların açılışı təmin ediləcək.

Əlbəttə ki, bunlar böyük maliyyə vəsaiti tələb edən layihələrdir. Azərbaycan dövləti iqtisadi cəhətdən kifayət qədər güclüdür və gücümüz artır. Sosial məsələlər bizim siyasətimizin əsas prioritetidir. Ona görə imkanımız da, siyasi iradəmiz də, texniki imkanlarımız var. Bütün səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində böyük işlər görülübdür.

İnsan sağlamlığı ən vacib məsələlərdən biridir. Azərbaycanda insan sağlamlığını təmin etmək, sağlamlığı qorumaq, profilaktik tədbirlər görmək üçün kompleks işlər aparılır. Bundan sonra da bu işlərin görülməsi üçün yaxşı şərait var, o cümlədən Naftalan şəhərində. Xəstəxana, eyni zamanda, həkimlərin iş yeridir. Hesab edirəm ki, hər bir həkim, hər bir tibb işçisi üçün belə şəraitdə işləmək xüsusi zövq verir.

Naftalan nəinki ölkəmizin, dünyanın nadir turizm mərkəzlərindən birinə çevrilir.

Mənə verilən məlumata görə, keçən il Naftalana 62 ölkədən 35 min qonaq gəlmişdir. Baxın, on il bundan əvvəl, ümumiyyətlə, gələn qonaqlardan söhbət belə getmirdi. Ancaq ötən il 35 min qonaq gəlib. Mən hesab edirəm ki, bu, hələ başlanğıcdır. Çünki məndə olan məlumata görə, sovet vaxtında Naftalana ildə 70 min qonaq gəlirdi. Hesab edirəm ki, bu gün Azərbaycanda turizmin çox sürətlə inkişaf etdiyini nəzərə alsaq, biz bu hədəfə çata bilərik. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 5 ayında isə 10 faiz artıb. Azərbaycan indi dünya miqyasında gözəl turizm mərkəzi kimi tanınır.

Son 10 il ərzində Naftalanda görülən işlər ümumi inkişaf dinamikamızı göstərir. Onu göstərir ki, güclü siyasi iradə olan yerdə, düşünülmüş siyasət aparılan ölkədə uğurlar da, nəticələr də, qələbələr də olacaq, insanlar daha yaxşı yaşayacaqlar. Naftalanda iş yerlərinin yaradılması son illər ərzində çox sürətlə gedib. Burada yaşayan vətəndaşların böyük əksəriyyəti xidmət sektorunda işləyir, yaxşı məvacib alır və ölkəmizin inkişafına öz dəyərli töhfəsini verir. Əminəm ki, bundan sonra Naftalanda işlər yaxşı gedəcək və şəhərin inkişafı uğurla davam etdiriləcək.

* * * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 5-də Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi üçün inşa edilmiş hərbi şəhərcikdə yaradılan şəraitlə tanış olub.

Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi hissədəki texnikalara baxmışdır.

Bildirilmişdir ki, 2S31 "Vena" özüyeriyən artilleriya qurğusu PDM-3 döyüş maşınının bazasında olub, düşmənin atış vasitələrini, tank əleyhinə vasitələri susdurmaq və məhv etmək, düşmənin səngərdəki canlı qüvvəsini, yüngül zirehli texnikasını və idarəetmə məntəqələrini məhv etmək, artilleriya və minaatan batareyalarını, raketburaxma qurğularını susdurmaq üçün təyin edilib.

Divizion komandirinin 1V15 idarəetmə kompleksi yüngül zirehli MT-Lbu maşını bazasında divizion komandirinin hərəkətli komanda-müşahidə məntəqəsi olub gündüz və gecə vaxtı ərazinin və düşmənin kəşfiyyatını aparmaq, öz yerini və hədəflərin koordinatlarını müəyyən etmək, sınaq atışına xidmət göstərmək və atəşə düzəlişlər vermək, yuxarı rəislər, ümumqoşun bölmələrinin və digər bölmələrin komandirləri ilə rabitə əlaqəsi saxlamaq üçün nəzərdə tutulub.

Piyadanın döyüş maşını olan PDM-3 piyada və motoatıcı hissələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub. Başqa qoşun növləri üçün də modernləşdirilmiş nümunələri olan bu maşın şəxsi heyəti çevrəvarı olaraq qəlpə və atıcılıq silahından, üz hissəsi isə 30 millimetrlik mərmilərdən qoruyur.

PDM-2 maşını da piyada və motoatıcı hissələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub. Onun silahlanmasına 30 millimetrlik 2A42 avtomatik topu, bir 7,62 millimetrlik PKTM pulemyotu və 9M113 tank əleyhinə idarəolunan raket qurğusu daxildir. Piyadanın döyüş maşını olan BTR 82-A motoatıcı bölmələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub.

SANDCAT mobil radio idarəetmə məntəqəsi əməliyyat idarəetmə sistemlərində tətbiq olunmaqla hərəkətdə və dayanacaqda qərargah zabitlərinin idarəetməsini təmin etmək üçündür.

Spike-LR tank əleyhinə idarəolunan raket kompleksi sürətli manevr edərək istənilən hava şəraitində düşmənin hərəkətsiz və hərəkətdə olan tank və zirehli texnikalarını məhv etmək üçün təyin edilib.

TUFAN-1 radiomaneə stansiyası axtarış aparmaq, texniki analiz, pelenqləmə, yerüstü və hava radiorabitə vasitələrinin, radioşüalanma mənbələrinin yerinin təyin edilməsi, fiksə olunmuş tezliklərin və tezliyin proqramla yenidən qurulması rejimində işləyən radiorabitə xəttinin susdurulması üçün nəzərdə tutulub.

Ali Baş Komandana "ORBİTER-3B" Pilotsuz Uçuş Aparatı təqdim olunmuşdur.

Bütün bunlar göstərir ki, son dövrlərdə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ordumuz müasir silah-sursat, hərbi texnika ilə təmin edilir, yeni hərbi şəhərciklər inşa edilir, mövcud olanları isə ən yüksək səviyyədə yenidən qurulur. Bütün bu tədbirlər Azərbaycan dövlətinin hərbi sahənin inkişafına yüksək diqqət və qayğı ilə yanaşmasının aydın təzahürüdür.

## "Problemli kreditlərin əsas səbəbi maliyyə savadlılığının olmamasıdır"

Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti ölkənin regonlarında fermerlər və kənd təssərrüfatı məhsulları istehsal edən sahibkarlar üçün "Maliyyə savadlılığının artırılması" təlimləri keçirməyə başlayıb.



Xidmətdən Trend-ə verilən məlumata görə, Dövlət Xidmətinin rəisi Mirzə Əliyev bildirib ki, problemli kreditlərin əsas səbəbi maliyyə savadlılığının olmamasıdır: "Fermerlərdə kredit qaytarmaq mədəniyyətini formalaşdırmaq, uğurlu təsərrüfat yaratmaq bacarıqları gəlişdirmək üçün onların maliyyə savadlılığını artırmaq vacibdir".

Mirzə Əliyev qeyd edib ki, Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti həyata keçirdiyi bütün layihələrdə - istər qrant, istər kredit, istərsə də investisiya layihələrində ilk növbədə fermerlərə maliyyə savadlılığı təlimi keçir. "Biz əmin olmalıyıq ki, təqdim etdiyimiz vəsaitləri fermerlər savadlı şəkildə xərcləyəcəklər. Maliyyə savadlılığının artırılması" təlimlərinin intensiv – hər həftə və bütün bölgələrdə keçirilməsinin daha bir səbəbi də fermerləri güzəştli aqrar kreditlərin verilməsinə hazır etməkdir.

"Maliyyə savadlılığının artırılması" təlimləri iştirakçılarına büdcə, qənaət, borc alma və investisiya kimi təməl maliyyə anlayışları barədə real iqtisadi şərtləri nəzərə alıb qərar vermək bacarığı aşılayır. Bu bacarıq sayəsində insanlar qarşılaşdıqları maliyyə problemlərini həll edə və planlı şəkildə qərar verə bilirlər.

Təlimin nəticəsi olaraq, sahibkarlar öz büdcələrini formalaşdırmağı öyrənir, gəlir və xərclərinin hesabatını düzgün yöndə aparırlar, onlarda həm yığım, həm də qənaət vərdişləri yaranır. İndiyədək Quba, Lənkəran rayonlarında belə təlimlər keçirilib. Növbəti "Maliyyə savadlılığı" təlimi iyunun 8-də Göygöl rayonunda keçiriləcək. Təlimlərə giriş ödənişsiz və sərbəstdir.

## Son dövrlərdə 127 min hektar yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilib




Bu barədə Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə deyib.

Onun sözlərinə görə, mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı xeyli yaxşılaşıb, 4 min 17 kilometr suvarma kanallarının, 2 min 486 kilometr kollektor-drenaj şəbəkələrinin bərpası, yenidənqurulması və tikinti işləri həyata keçirilib, 379 min hektar suvarılan torpaqların su təminatı və 256 min hektar sahədə meliorativ vəziyyəti yaxşılaşdırılıb.

Sədr qeyd edib ki, həmçinin 1960 ədəd subartezian quyusu qazılıb, sel və daşqınlara qarşı dağ çaylarında 200 kilometrə yaxın sahilbərkitmə, Kür-Araz çaylarında isə 900 kilometr uzunluğunda bəndlərin möhkəmləndirilməsi və hündürləndirilməsi işləri yerinə yetirilib.

## Bakı-Tbilisi-Qars dəmir yolu Naxçıvan istiqamətində davam etdiriləcək

Qars-İqdır-Aralıq-Dilucu dəmir yol xətti tikintisinin Naxçıvan Muxtar Respublikası (Azərbaycan) istiqamətində davam etdirilməsi işlərinə 2018-ci ilin sonu – 2019-cu ilin əvvəlində start veriləcək. Bu barədə yerli jurnalistlərə Türkiyənin nəqliyyat, gəmiçilik və kommunikasiyalar naziri Əhməd Arslan məlumat verib.

Yeni nəqliyyat layihəsinə əsasən, tikintisi nəzərdə tutulan iki yoldan ibarət dəmiryol xəttinin uzunluğu 224 kilometr olacaq.

Nazirin sözlərinə görə, bu xətt Bakı-Tbilisi-Qars dəmir yolu ilə birləşdiriləndən sonra Şərqdən Qərbə tərəf bütün Türkiyə ərazisindən keçən Qars-Kapıkule xəttinə, daha sonra Avropaya doğru uzanacaq.

Beləliklə, Kapıkule-Edirne-İstanbul-Eskişehir-Ankara-Yozqat- Sivas-Erzincan-Qars dəmir yolu İqdır əyalətindən keçməklə Azərbaycan və İran dəmir yollarına birləşdiriləcək.

Yeni dəmir yol xətti çəkilərkən sürəti saatda 160 kilometrədək olan qatarlardan istifadə etmək imkanı nəzərə alınacaq.

# Biz nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edir və Avropanın enerji xəritəsini yenidən tərtib edirik




**May ayının 30-da AzTV-nin "Günün nəbzi" verilişində Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə, millət vəkilləri Rasim Musabəyov, professor Elman Nəsirov və BP Azərbaycanın vitse-prezidenti Bəxtiyar Aslanbəyli ilə mayın 29-da açılışı olan Cənub Qaz Dəhlizi layihəsi barədə fikir mübadiləsi aparılmışdır.**

**Aparıcı (Rövşən Rafiqoğlu):** Mayın 29-da Cənub Qaz Dəhlizi layihəsinin rəsmi açılışı keçirildi. Cənab Prezident İlham Əliyev mərasimdə çıxış etdi və Azərbaycanın enerji siyasəti ilə bağlı mühüm məqamlara, strateji məsələlərə bir daha aydınlıq gətirdi. Biz dövlət başçısının çıxışı, Cənub Qaz Dəhlizinin qlobal və regional əhəmiyyəti ilə bağlı qonaqlarımızla ətraflı fikir mübadiləsi aparacağıq. Ziyad müəllim, istərdim ilk sualı sizə ünvanlayaq. Biz "Əsrin müqaviləsi", bu müqavilənin Azərbaycan üçün, Azərbaycanın iqtisadiyyatı üçün əhəmiyyəti barədə dəfələrlə fikir mübadiləsi aparmışıq və sizin dediyiniz fikirlərdən bir neçəsi mənim xüsusilə yadımda qalıb.

Birincisi, "Əsrin müqaviləsi"-nin ümummilli liderin rəhbərliyi altında reallaşması ilə Xəzər dənizinin bugünkü yataqlarının məhz Azərbaycana məxsus olması hüquqi baxımdan öz təsdiqini tapdı, sübuta yetirildi.

İkincisi, "Əsrin müqaviləsi" ilə, etiraf edək ki, bəlkə də Azərbaycan tarixində ilk dəfə olaraq Azərbaycanın enerji mənbələri məhz xalqın ixtiyarına verildi.

Bax, bütün bu kontekstlərlə yanaşı, faktiki olaraq, biz, əsrin layihəsi barədə fikir mübadiləsi aparırıq. Cənub Qaz Dəhlizinin əhəmiyyəti, bu tarixi məsələnin önəmi barədə hansı fikirləri söyləyə bilərsiniz.

**Ziyad Səmədzadə:** Əvvəla, mən də Azərbaycan xalqını bu bayram münasibətilə təbrik edirəm. Cənab prezidentin həmin mərasimdəki çıxışı, sözün əsl mənasında, tarixi çıxış idi. Bu çıxış bir daha göstərdi ki, müstəqil Azərbaycan uğurla, dinamik inkişaf edir və özünün apardığı iqtisadi siyasət nəticəsində respublikanın malik olduğu təbii resurslardan səmərəli istifadə edilməsi imkanlarını ildən-ilə artırır.

Azərbaycanda neft, təxminən 170 ildir ki, sənaye üsulu ilə istehsal olunur.

**Aparıcı:** Deməli, ilk dəfə olaraq məhz Azərbaycanda?

**Ziyad Səmədzadə:** Məhz Azərbaycanda və bu müddətin yalnız 25 ilində Azərbaycan xalqı özünün təbii sərvətlərinin sahibi olub. Azərbaycanda indiyə qədər 2 milyard tondan bir az çox neft çıxarılıb. Bunun yalnız 25 ili Azərbaycan xalqına məxsus olub. Yəni, 25 il ərzində Azərbaycan xalqı, mən deyərdim ki, əsrlərə bərabər yol keçmişdir. Baxın, Azərbaycandan 150 il neft çıxarılıb, milyard dollarla pullar qazanılıb, Azərbaycanın torpaqlarının xeyli hissəsi əkinəyararsız hala düşüb, bir çox problemlərimiz illər boyu həll edilməmiş qalıb.

Sovet dövründə, xüsusən də 70-ci illərdə Azərbaycan iqtisadiyyatının dinamik inkişafı təmin olundu və biz yanacaq-energetika resurslarından daha səmərəli istifadə etmək imkanlarını əldə etdik. Son 25 ildə Azərbaycan nələrə nail oldu. Uğurlu neft strategiyasının reallaşması nəticəsində bu gün Azərbaycan öz iqtisadiyyatının gücünü dəfələrlə artırıb, iqtisadi potensialını möhkəmləndirib, dünya miqyaslı, irimiqyaslı layihələrə sahib olub. Bizim 45 milyarddan çox valyuta ehtiyatlarımız var. Yəni, maliyyə vəsaitləri olmayan bir şəraitdə Azərbaycan "Əsrin müqaviləsi"ni imzaladı. Bizim bugünkü iqtisadi gücümüzün, iqtisadi müstəqilliyimizin əsasında "Əsrin müqaviləsi" dayanır və bu gün "Şahdəniz" layihəsini imzalamaqla Azərbaycan dünyaya bəyan edir ki, mən bir müstəqil dövlət kimi, Azərbaycanın təbii resurslarının dünya bazarına çıxarılması istiqamətində mübarizə aparıram və uğurlu əməkdaşlığa görə də sizlərə təşəkkür edirəm. Azərbaycan bir daha dünyaya sübut etdi ki, onun təbii resursları hələ bundan sonra da həm bəşəri inkişafa, Avropanın elektrik təhlükəsizliyinə xidmət edəcək, həm Azərbaycanın potensial imkanlarını genişləndirəcəkdir. Biz "Əsrin müqaviləsi"ni




imzalamaqla çox böyük iqtisadi, sosial və siyasi dividendlər əldə etdik və heç şübhəsiz ki, bununla Azərbaycanın iqtisadi gücü daha da artacaq, beynəlxalq əməkdaşlıq sahəsində imkanları genişlənəcək. Azərbaycan investisiya və inkişaf üçün böyük imkanlara malikdir və dünyanın ən iri nüfuzlu şirkətlərini burada görməkdən məmnunluq duyur.

**Aparıcı:** Faktiki olaraq, bu gün əldə etdiyimiz uğurların bazisi, ana xətti məhz "Əsrin müqaviləsi"ndən başlanır. "Əsrin müqaviləsi" olmasaydı, 1999-cu ildə Bakı-Supsa, 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri, 2013-cü ildə Bakı-Tbilisi-Ərzurum qaz, yaxud da 2017-ci ildə Bakı-Tbilisi-Qars və eləcə də, Cənub Qaz Dəhlizini reallaşdıra bilməzdik. Amma, eyni zamanda, bu qaz layihələrinin reallaşdırılması istiqamətində mühüm önəm kəsb edən məsələlərdən biri də, heç şübhəsiz ki, əməkdaşlıq münasibətləridir. Əgər regional əməkdaşlıq münasibətləri olmasaydı, yaxud da qlobal miqyasda Azərbaycanın sözünün çəkisi olmasaydı, bu layihələri də reallaşdırmaq mümkün olmazdı. Cənub Qaz Dəhlizi çərçivəsində 2011-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında strateji enerji əməkdaşlığına dair memorandum imzalandı, 2012-ci ildə Azərbaycanla Türkiyə arasında saziş, 2013-cü ildə TAP layihəsi üzrə beynəlxalq saziş, 2015-ci ildə Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının birinci iclasının keçirilməsi və s. haqqında istərdim, Rasim müəllim, sizin fikirlərinizi eşidək.

**Rasim Musabəyov:** Bu layihə əslində regional deyil, transkontinentaldır. Bu kəmər bilavasitə altı ölkənin ərazisindən keçir. Bu layihəni maliyyələşdirmək üçün böyük dövlətlərin razılığı olmadan maliyyə qurumları o layihəyə vəsait ayırmazdılar. Azərbaycan bunu da bacardı və gizlətmək lazım deyil, bu, cənab prezidentin bilavasitə səyləri nəticəsindədir. Ona görə ki, bütün danışıqları ən yüksək səviyyədə bilavasitə cənab prezident aparıb, ona etibar edilib, ona dəstək verilmişdir.

**Aparıcı:** Başqa sözlə, qlobal layihələr məhz liderlərin nüfuzunda reallaşır.

**Rasim Musabəyov:** Bəli. Ziyad müəllim bu layihənin Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətini qeyd etdi, ancaq mənə elə gəlir ki, diqqətdən kənarda qalmamalıdır ki, bu layihə Azərbaycanın geopolitik çəkisini artırır. Eyni zamanda, nəzərə almaq lazımdır ki, bu layihənin ilkin mərhələsində ötürüləcək qazın 16 milyard kubmetrdən 32-yə qədər qaldırılması planlaşdırılıb, gələcəkdə bundan da artıq ola bilər. Təbii ki, Cənub Qaz Dəhlizi də Bakı-Tbilisi-Ceyhan kimi geopolitik əhəmiyyət üçün olduqca vacibdir.

**Aparıcı:** Ən əsası isə yalnız regional deyil, Xəzər regionu ölkələri də gələcəkdə bu layihəyə sərbəst qoşula, faydalana bilər.

Elman müəllim, istərdim sizin fikirlərinizi eşidək. Faktiki olaraq, bu gün Azərbaycan Avropa İttifaqı ölkələri ilə sırf əməkdaşlıq münasibətlərinə, strateji tərəfdaşlıq münasibətlərinə malikdir ki, bu layihələr həyata vəsiqə qazandı. Burada xüsusi önəm kəsb edən məsələlərdən biri Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında olan münasibətdir, əməkdaşlıqdır. Məsələn, çox uzağa getməyək, son bir ayda ABŞ Prezidenti Donald Trampın Azərbaycan prezidentinə üç məktubu ünvanlandı. Mən istərdim ki, həmin məktubdan sitatları oxuyum, daha sonra sizin şərhlərinizi eşidək. Məsələn, Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı məktubda deyilir: "Enerji sahəsində illərdir davam edən əməkdaşlığımız bu il inanılmaz bir nailiyyət kimi, Avropanın zəruri enerji təhlükəsizliyini təmin edəcək ilk qazın Cənub Qaz Dəhlizi vasitəsilə nəqli sayəsində zirvəyə yüksəlmişdir".

Yaxud da, Beynəlxalq Xəzər Neft və Qaz sərgisinin 25 illiyi və Cənub Qaz Dəhlizinə ilk qazın verilməsi münasibətilə Prezident İlham Əliyevə ünvanlanan məktubda deyilir: "İlk müstəqil dövlətinin 100 illiyini qeyd edən Azərbaycan indi daha firavan və qlobal iqtisadiyyata malik bir ölkədir. Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir. Sizin qaz hasilatınız isə Türkiyə və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcəkdir. Enerji layihələrinizin uğurunu möhkəmləndirəcək iqtisadi və hüquqi islahatları davam etdirməyinizi dəstəkləyirəm. Bizim böyük dövlətlərimizin və Qafqaz regionunun daha firavan, dinc və təhlükəsiz olması naminə Sizinlə birgə işləmək əzmindəyəm".

Dünyanın super güclü bir dövlətinin cənab prezidentə ünvanlandığı məktubda qeyd olunan bu fikirlər nəyi deməyə əsas verir?

**Elman Nəsirov:** Mən, əvvəla onu qeyd etmək istəyirəm ki, mayın 29-u Azərbaycan tarixinin ən şərəfli günlərindən biri olaraq yadda qaldı və artıq bu gün də bizim tariximizə qızıl hərflərlə yazıla bilər. Ondan bir gün öncə, mayın 28-i Cümhuriyyətimizin 100 illiyini qeyd etdik və hesab edirəm ki, burada da bir rəmzi məna var. 100 illiyimizi qeyd etdik və bir gün sonra - mayın 29-da bütün dünyanın enerji xəritəsini dəyişə biləcək bir gücə malik Cənub Qaz Dəhlizinin rəsmi açılışı həyata keçirildi. Bu nöqteyi-nəzərdən hesab edirəm ki, ölkə Prezidenti cənab İlham Əliyevin, "Əgər o Cümhuriyyəti yaradan böyük şəxsiyyətlər bizim bugünkü günümüzü görsəydilər, bugünkü inkişaf edən Azərbaycanı görsəydilər, böyük qürur hissi keçirərdilər" sözləri lap yerinə düşür. Həqiqətən də, o zaman Xalq Cümhuriyyəti neftin sahibi olub, onu dünya bazarına çıxara bilmədi. Bu gün isə həm Azərbaycan nefti, həm də qazı dünya bazarına çıxır və dövlətimizin inkişafında bu hadisələrin müstəsna rolu var.

Dövlətimizin başçısı mayın 29-da keçirilən mərasimdə də qeyd etdi ki, çox qəliz, həm texniki, həm də iqtisadi baxımdan çox mürəkkəb olan bu layihənin reallaşdırılması yalnız və yalnız beynəlxalq əməkdaşlıq sayəsində mümkün olub və buna görə də Türkiyə hökumətinə, Gürcüstan hökumətinə, Avropa İttifaqına, Avropa Komissiyasına təşəkkürünü bildirdi və xüsusilə Amerika Birləşmiş Ştatlarının üzərində dayandı. Amerika Birləşmiş Ştatları və Cənub Qaz Dəhlizi layihəsinin reallaşması ilə bağlı iki məqamı vurğuladı.

Bir - mənəvi, siyasi dəstəyindən bəhs etdi, çünki bu, çox vacib məsələdir. Eyni zamanda, Birləşmiş Ştatların maliyyə dəstəyi məsələlərinə toxundu və öz təşəkkürünü bildirdi ki, dünyanın fövqəl dövləti olan Birləşmiş Ştatların, təbii ki, bu layihələrin reallaşdırılmasındakı dəstəyi, xüsusilə Cənub Qaz Dəhlizinin həyata keçirilməsindəki mövqeyi bizim üçün çox mühüm əhəmiyyət kəsb edir.

Həm də Amerika Prezidenti cənab Trampın son ay ərzində Azərbaycan prezidentinə üç məktubundan sitat gətirdiniz və mən də bir məqama toxunmaq istərdim. Azərbaycandan bəhs edəndə 100 illik xüsusi vurğulanır. Yəni, bu gün dünyanın hətta çox böyük dövlətləri 100 illiyini qeyd etməyiblər. Məsələn, qardaş Türkiyə dövləti nəhəng dövlətdir, NATO ölkəsidir, 2023-cü ildə 100 illiyini qeyd edəcək. Bu nöqteyi-nəzərdən Azərbaycan daha firavan bir dövlət kimi qiymətləndirilir və qlobal iqtisadiyyatla bağlı bir dövlət kimi təqdim edilir. Bunlar çox vacib məsələlərdir.

Bu fikirlərin əhəmiyyəti həm də ondadır ki, bu gün bir çox ölkələrdə ermənilərin əlində siyasi alətə çevrilmiş qüvvələr mövcuddur. Elə Birləşmiş Ştatların özündə. Bilirsiniz ki, konqresdə xeyli ermənipərəst konqresmenlər və senatorlar var. Krestofer Simit - ABŞ konqresinə, həm də Helsinki Komissiyasına rəhbərlik edir, bizim əleyhimizə olan 907-ci maddənin əsas müəlliflərindın biridir.

**Aparıcı:** Həmçinin, qondarma erməni soyqırımının.

**Elman Nəsirov:** Bəli, eyni zamanda, bu o, şəxsdir ki, ciddi cəhdlə çalışırdı ki, konqresdə Azərbaycanda demokratiya aktı deyilən bir sənəd qəbul edilsin. Məqsəd nə idi? Məqsəd o idi ki, Azərbaycan hökumətinə, onun nümayəndələrinə, bizim təhlükəsizlik xidmətinin şəxslərinə qarşı sanksiyalar tətbiq edilsin, onların ABŞ-a səfəri mümkün olmasın, yəni bir az da açıq desək, Krestofer Simit kimi konqresmenlərin niyyəti o idi ki, Azərbaycan-Birləşmiş Ştatlar strateji tərəfdaşlıq münasibətlərinə kölgə salınsın, bu münasibətlərə zərbə endirilsin. Bu reallığın fonunda Amerika Birləşmiş Ştatlarının dövlət başçısı Azərbaycanı özünün strateji tərəfdaşı hesab edir və xüsusilə də, təhlükəsizlik məsələlərində Azərbaycanla ABŞ-ın tərəfdaş olduğunu, beynəlxalq sülhə, təhlükəsizliyə böyük töhfə verdiyini təsdiqləyir. Hesab edirəm ki, bunlar olduqca vacib məqamlardır və onu göstərir ki, Cənub Qaz Dəhlizinin reallaşdırılması istiqamətində heç bir maneə yoxdur, artıq o reallaşdırılmış bir layihə kimi qəbul oluna bilər.

**Aparıcı:** Təşəkkür edirəm və istərdim ki, digər məqamlara da toxunaq. Bəxtiyar müəllim, bu gün biz Cənub Qaz Dəhlizinin rəsmi açılışından danışırıq. Amma Azərbaycan bir dövlət olaraq bu günə gəlib çatmaq üçün nələrdən keçmədi, hansı çətinliklərlə üz-üzə qalmadı ki? Biz bu nəticəyə pillə-pillə nail olduq. Bunu xüsusi olaraq qeyd etmək lazımdır. Məsələn, "Əsrin müqaviləsi"nin imzalanması və həyata vəsiqə qazanması Azərbaycanı faktiki olaraq Avropaya və dünyaya tanıtdı, BP ilə Azərbaycan əməkdaşlığının əsasını qoydu. Eyni zamanda, 2006-cı ildə Bakı-Tbilisi-Ərzurum kəməri istifadəyə veriləndən sonra Azərbaycan qazının Avropaya çıxarılması kimi fikirlər ciddi müzakirə mövzusuna çevrildi və bu gün biz Cənub Qaz Dəhlizinin artıq rəsmən açılışından danışırıq. Təbii ki, bu əməkdaşlıqda Azərbaycanla BP arasında işbirliyinin, əməkdaşlığın inkişaf istiqamətləri hansı yöndə inkişaf edəcək və ümumiyyətlə, bu əməkdaşlıq barədə nə söyləmək olar?

**Bəxtiyar Aslanbəyli:** Çox sağ olun. Tamamilə doğru buyurursunuz, əslində Azərbaycan, yəni açıq dənizə çıxışı olmayan bir ölkənin dünyanın hazırkı enerji xəritəsində aktiv nöqtələrdən birinə çevrilməyi böyük nailiyyətdir. Təsəvvür edin, bu gün artıq biz Azərbaycan-Gürcüstan enerji koridorunun əsas və yeganə təchizatçısıyıq.

Bakı-Ceyhan ilk dəfə olaraq Xəzərin enerji ehtiyatlarının dünya bazarına çatdırılması üçün bir boru kəməri funksiyasını oynadı. Bakı-Tbilisi-Ceyhanın ən böyük əhəmiyyəti o idi ki, ilk idi, bundan sonra Cənubi Qafqaz boru kəməri, Bakı-Tbilisi-Ərzurum, daha sonra dəmiryol layihəsi və bu gün də artıq Cənub Qaz Dəhlizinin reallaşması... Cənub Qaz Dəhlizi barədə biz bu studiyada dəfələrlə müzakirələr aparmışıq və onun müxtəlif komponentləri barədə danışmışıq. Bayaq hörmətli Ziyad müəllim də tamamilə doğru qeyd etdi ki, layihə siyasi cəhətdən özü-özlüyündə, eyni zamanda, texniki cəhətdən də kifayət qədər mürəkkəbdir. Məsələn, çox vaxt "Şahdəniz-2" layihəsini sadə bir layihə olaraq qiymətləndiririk. Amma "Şahdəniz-2" layihəsi, əslində, Xəzərdə ən dərin sulu hissədə - 550 metr dərinlikdə 7200 metr yerin təkinə doğru quyuların qazılması deməkdir. "Şahdəniz-2" layihəsi 26 bu cür quyu deməkdir ki, onun artıq 14-ü qazılıb. Bu layihə, eyni zamanda, 30 min ton çəkisi olan körpü ilə birləşən iki nəhəng platformadan ibarətdir və 500 kilometr sualtı boru kəməri deməkdir. Səngəçal Terminalının 88 hektar ərazidə genişləndirilməsi ilə Azərbaycan ərazisində 428 kilometr Cənubi Qafqaz boru kəmərinə paralel boru kəmərinin tikilməsidir.

**Aparıcı:** Bəxtiyar müəllim, tam əminliklə söyləmək olarmı ki, Cənub Qaz Dəhlizi layihəsi qlobal miqyasda ən nəhəng layihələrdən biridir?

**Bəxtiyar Aslanbəyli:** Hal-hazırda ən nəhəng layihədir. Ümumiyyətlə, Cənub Qaz Dəhlizi neft-qaz sənayesi tarixində həyata keçirilən ən nəhəng layihədir və bu gün o layihə artıq reallaşır.

**Aparıcı:** Hətta, Asiya İnkişaf Bankının açıqlaması vardı ki, indiyə qədər ən böyük vəsait ayırdığı layihədir.

**Bəxtiyar Aslanbəyli:** Tamamilə doğrudur. Bu layihənin reallaşması Azərbaycan dövlətinin siyasi iradəsi, əzmkarlığı nəticəsində mümkün oldu və eyni zamanda, bu iradə və əzmkarlıq kifayət qədər beynəlxalq dəstəyə də söykənir. Yəni, beynəlxalq dəstək dedikdə, mən sadəcə beynəlxalq maliyyə qurumlarının maliyyələşmə istiqamətini, dəstəyini nəzərdə tutmuram. Kifayət qədər siyasi dəstək olub. İki nümunə göstərim. İranla bağlı sanksiyalar bəllidir. 2012-ci ildə Avropa Birliyi, ondan daha əvvəl isə Amerika Birləşmiş Ştatlarının sanksiyaları var idi ki, hər hansı İran şirkəti olan layihələrdə Amerika Şirkətlərinin və yaxud Amerika birjalarının səhmlərinin iştirakı qadağan idi. Ancaq "Şahdəniz" layihəsinin əhəmiyyətini nəzərə alaraq, "Şahdəniz" layihəsi o sanksiyalardan azad edilmişdir.

**Aparıcı:** Bu, nəyin əsasında reallaşıb?

**Bəxtiyar Aslanbəyli:** Layihənin əhəmiyyəti və Azərbaycan dövlətinin bu layihəni düzgün şəkildə beynəlxalq ictimaiyyətin nəzərinə çatdırması nəticəsində.

İkinci bir misalı qeyd edim. Avropa Birliyinin enerji qanunvericiliyində belə bir müddəa var ki, bir boru kəməri ilə yalnız bir təchizatçının enerji ehtiyatları nəql edilə bilməz. Ən azı bunun 50 faizi üçüncü tərəflərə də açıq olmalıdır. TAP layihəsinin birinci mərhələsi 10 milyard kubmetrdir. Şahdəniz qazının nəql edilməsi üçün xüsusi azadolma var: biri Amerika Birləşmiş Ştatları konqresinin verdiyi azadolmalar, ikincisi, Avropa Komissiyasının verdiyi azadolmalar.

Rasim Musabəyov: Rusiya üçün bu azadolma verilməyib.

**Bəxtiyar Aslanbəyli:** Şimal axını ilə bağlı azadolma yoxdur, tamamilə doğrudur. Yəni, bu, bilavasitə iki məsələdən xəbər verir. Bir - layihənin əhəmiyyəti, iki - Azərbaycan dövlətinə olan inam. Bu layihələrin icrasında Azərbaycan dövlətinin funksiyası ondan ibarət idi ki, bu cür böyük siyasi əhəmiyyətə malik bir layihəni yerinə yetirə bilsin və artıq mayın 29-da bu layihənin rəsmi açılış mərasimi oldu. Təbii ki, bundan sonra da görüləcək işlər var. Layihənin tamamlanması davam edəcək, rəsmi açılış mərasimi qazın Türkiyəyə verilməsinin ilkin mərhələsi kimi dəyərləndirilməlidir. Bütövlükdə, dünya miqyasında xüsusi çəkisi olan bir layihə artıq reallaşıb.

**Aparıcı:** Siz etimad mövqeyindən danışdınız, mən, yeri düşmüşkən, bu məqamda bir fikri qeyd etmək istərdim. Biz dəfələrlə BP-nin ən yüksək strukturlarında çalışan şəxslərdən müsahibələr almışıq və BP prezidentinin dediyi fikri mən sitat kimi gətirmək istərdim: "Biz bir çox ölkələrlə əməkdaşlıq edirik, amma həmin ölkələr müəyyən zaman keçəndən sonra müqavilədən çıxırlar, şərtləri dəyişirlər. Amma Azərbaycan yeganə ölkələrdəndir ki, müqavilənin sonuna qədər şərti dəyişmir".

**Bəxtiyar Aslanbəyli:** Müdaxilə edim icazənizlə. Uzağa getmək lazım deyil. Region ölkələrinə, ətrafımızda olan hasilatçı ölkələrə baxsaq, adlarını qeyd etməyim, onların hər birində sonradan müqavilənin şərtlərinin dəyişdirilməsi, şərtlərin daha da sərtləşdirilməsi kimi hallara rast gəlmək olar. Azərbaycanda isə heç bir layihədə bu vaxta qədər dəyişiklik olmayıb. Təbii ki, əlavələr olub, amma qarşılıqlı razılaşma əsasında. Bizdə hasilatdan pay bölgüsü tipli sazişlər parlamentdə ratifikasiya olunur və qanuni qüvvəyə minir. Bu, ümumiyyətlə neft-qaz sənayesi tarixində ilklərdən biridir. Əvvəlki hasilatdan pay bölgüsü tipli kimi sazişlərə baxsaq, parlamentdə ratifikasiya nümunələrinə ən azından mən hələ rast gəlməmişəm. Dövlət səviyyəsində təminatın parlament səviyyəsində təsdiqidir.

**Rasim Musabəyov:** Çünki bu layihələr elə yaxşı işlənilir ki, onu sonradan dəyişməyə də ehtiyac olmur.

**Aparıcı:** Biz faktiki olaraq, Cənub Qaz Dəhlizi layihəsi ilə bağlı öz əhəmiyyətli fikirlərimizi deyirik. Mayın 29-da isə müxtəlif ölkələrin rəsmi nümayəndələri öz ölkələrinin rəhbərlərinin məktublarını oxudular: ABŞ dövlət katibinin köməkçisi, enerji məsələləri üzrə müavini xanım Sandro Oudkirk Donald Trampın, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson Tereza Meyin və Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın. Bu məktublar oxunarkən, Cənub Qaz Dəhlizinin əhəmiyyəti ilə bağlı çox böyük fikirlər eşitdik, bu layihənin strateji önəm kəsb etdiyini dünyanın aparıcı ölkələrinin liderlərinin adından duyduq. Sevindirici hal ondan ibarətdir ki, Ziyad müəllim, bu layihənin müəllifi məhz Azərbaycandır, məhz bizik. "Şahdəniz-2" Azərbaycanındır, elə TAP-da da, TANAP-da da əsas yük, əsas məsuliyyət məhz Azərbaycanın üzərinə düşür.

**Ziyad Səmədzadə:** Heç şübhəsiz, hamımız sevinclə qulaq asırdıq, çünki bu ölkələr dünya iqtisadiyyatının əsas hissəsini istehsal edirlər. Amerika Birləşmiş Ştatları, İngiltərə, eləcə də OPEC-in rəhbərinin çıxışı, Qaz İxrac Edən Ölkələrin Forumunun rəhbəri - bütün bunlar bir daha sübut edir ki, Azərbaycanın müəyyən etdiyi inkişaf strategiyası, həm ilk növbədə ölkənin milli maraqlarına cavab verir, həm də qlobal dünya iqtisadiyyatında milli maraqlar baxımından iştirakı nəzərdə tutur. Bu layihələrin müəllifi ulu öndər Heydər Əliyev olub, bu gün bu işi cənab prezident uğurla həyata keçirir.

Cənab prezident hələ Neft Şirkətində vitse-prezident vəzifəsində çalışarkən bu layihələrin hazırlanmasında, danışıqlarda iştirak edib, dünyanın ən aparıcı şirkətlərinin rəhbərləri ilə görüşüb və millətin, dövlətin aliliyini, gücünü sübut edən şərtlərdən biri də odur ki, qanunları alidir. Cənab prezident tərəfindən təqdim olunan sazişlər Milli Məclisdə təsdiq olunur, yəni bu, Azərbaycan liderinin dünyaya baxışıdır. Dünyada Azərbaycanı tanıtdırmaq üçün o qədər də çox şərtlər yoxdur. Sadəcə bir neçə meyar var ki, onlara əməl etməlisən. Cənab prezident dünya miqyaslı liderdir.




Mən xatırlayıram Macarıstanın lideri, başçısı üzünü cənab prezidentə tutaraq demişdi ki, dünyada çoxsaylı ölkələrdə o qədər konfliktlər var ki, onları barmaqlarımızla saysaq, kifayət etməz. Çünki o ölkələrdə lider yoxdur. Amma Azərbaycanda isə sakitlik var. Lideri olan xalq həmişə xoşbəxtdir.

**Aparıcı:** Hər bir ölkəyə də liderə görə qiymət verirlər.

**Ziyad Səmədzadə:** Bəli. Dünyanın aparıcı şirkətləri, beynəlxalq təşkilatların rəhbərləri cənab prezidentlə görüşəndən sonra, təbii ki, öz təəssüratlarını bölüşürlər və həmişə Azərbaycana gələndə Azərbaycan haqqında çox yüksək fikirlərlə qayıdırlar.

Amerika Birləşmiş Ştatları Trampın məktubunda bir cümlə var: "Azərbaycan dünya enerji siyasətinə sabitlik gətirir". Dünya enerji siyasəti XIX əsrin axırından XX əsrin sonuna qədər və indi də, həmişə də çox mürəkkəb dövrləri yaşayıb. Kimin nefti varsa, o həm bədbəxtlikdir, həm xoşbəxtlikdir. Xoşbəxtlik o zaman olur ki, düşünülmüş siyasət olur, xoşbəxtlik o zaman olur ki, sən dünyanın liderləri ilə öz təbii sərvətlərini qoruyursan. Cənab prezident dəfələrlə deyir ki, neft məqsəd deyil, neft vasitədir. Ona görə də dünyanın neft siyasətində oynamaq üçün, oyunçu kimi iştirak etmək üçün sən gərək üzbəüz dayanan rəqiblərini tanıyasan. Ona görə də mən belə hesab edirəm ki, Azərbaycanın bu gün apardığı neft siyasəti dünyəvi bir siyasətdir. Əgər Azərbaycandan da çox neft çıxaran ölkələr belə siyasət aparsaydılar, dünyada yoxsul ölkələrin sayı azalardı. Götürək Nigeriyanı, Venesuelanı, yəni bu ölkələrdə siyasət düzgün olsaydı, yoxsulların sayı da az olardı. İnkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında fərq o qədər də uçurumlu olmazdı. Uzun müddət ekspertlər deyirdilər ki, neft hasil edilən ölkələrdə inkişaf sürəti həmişə aşağı olur. Amma Azərbaycanda 15 il ərzində 3,2 dəfə artım oldu. Bu isə düşünülmüş, tarazlı, bir sahəyə bağlanmamaq siyasətinin nəticəsi idi. Mən çox sevinirəm ki, Çin də Azərbaycan haqqında bu fikirdədir, Amerika Birləşmiş Ştatları da. Bizim həmkarlarımız yaxşı bilirlər, dünyada mənafelər uğrunda mübarizə gedir. Mənafeləri o vaxt uduzursan ki, sən kimisə haqsız tapdalayırsan. Amma sözünü qanuni çərçivədə, ədalətli mövqedə deyəndə, maraqların toqquşmasına getməyəndə, sən qalib gəlirsən. Mən hesab edirəm ki, bizim bu layihədə bir daha sübut etdi ki, Azərbaycan XXI əsrin sonuna qədər dinamik inkişaf edəcək. Mən bir dəfə də demişəm ki, dünyada üç-dörd ölkə tapılar ki, özünün iqtisadi inkişaf strategiyasını yarım əsrə müəyyən etsin. 90-cı illərin əvvəllərində biz proqnoz müəyyən edə bilmirdik. Amma bu gün Azərbaycan 2050-ci ilə qədər dinamikanı artıq müəyyən edib. Çünki bizim konkret hədəflərimiz, konkret meyarlarımız var və ona görə də mən ziyalı kimi bir daha səmimi deyirəm ki, Allah bizim dövlətimizi, cənab prezidentimizi qorusun. Məhz onun məsələyə belə sistemli yanaşması bu qədər müvəffəqiyyətlərin əldə olunmasına imkan verdi.

**Elman Nəsirov:** Ziyad müəllimin fikirlərinin davamı olaraq demək istəyirəm ki, Avropa Parlamentində enerji təhlükəsizliyi məsələləri müzakirə olunarkən dəfələrlə biz bunun şahidi olduq ki, Azərbaycanla Cənub Qaz Dəhlizi ilə bağlı əməkdaşlıq etmək həm də ona görə rahatdır ki, ölkənin başçısı enerji sahəsində mükəmməl biliklərə malikdir. Azərbaycan prezidenti Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin beynəlxalq əlaqələr üzrə vitse-prezidenti, sonra birinci vitse-prezidenti vəzifələrində işləyib və xüsusilə 1994-cü ilin iyul-sentyabr aylarında, təxminən 45 gün Hyustonda danışıqlarda iştirak edib. Sentyabrın 20-də isə "Əsrin müqaviləsi" imzalandı. Biz ilk dəfə İlham Əliyevin diplomatik bacarığını o zaman kəşf etdik.

Rövşən müəllim, məsələ ondadır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev Cənub Qaz Dəhlizini, ilk növbədə azad rəqabət layihəsinə, enerji təhlükəsizliyi layihəsinə çevirə bildi. Burada həm enerjinin şaxələndirilməsi reallaşır, həm də istehsalçı, tranzit və istehlakçı ölkələrin mənafeləri nəzərə alınır. Ən başlıcası, dövlət başçımızın ən böyük nailiyyəti onda oldu ki, - bunu avropalı parlamentarilər də etiraf etdilər, - dövlətimizin başçısı enerji və siyasəti bir-birindən ayıra bildi. Yəni, biri digərinin əlində alət deyil. Bu, çox mühüm, vacib məsələlərdən biridir və eyni zamanda, Azərbaycan prezidenti bütün dünyaya göstərdi ki, bizim üçün enerji təhlükəsizliyi nə deməkdir. Aydın şəkildə onun mənasını açdı. Azərbaycanda enerji təhlükəsizliyi, ilk növbədə enerji marşrutlarının şaxələnməsidir. Biz bunda maraqlıyıq, amma, eyni zamanda, bu şaxələndirmədə bizim üçün çox böyük etibarlı bir bazar var, bu daildə təxminən 500 milyon kubmetr qaza ehtiyacı olan Avropa bazarıdır. Azərbaycan Avropa üçün yeni, alternativ enerji mənbəyidir. Avropa üçün enerji təhlükəsizliyi, ilk növbədə enerji mənbələrinin şaxələndirilməsi baxımından Azərbaycanın çox böyük əhəmiyyəti var. Məhz bu əməkdaşlıq sahəsində Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya bu gün Cənub Qaz Dəhlizinin iştirakçılarıdırlar. Bizim Bosniya və Herseqovina, Xorvatiya, Monteneqro ilə anlaşma memorandumumuz var və ən maraqlısı odur ki, sayca dördüncü məşvərət iclasında Rumınıya və Türkmənistan da iştirak etdi. Ölkələrin buna marağı getdikcə artmaqdadır. Bolqarıstanın Baş naziri Azərbaycanda səfərdə olarkən dövlət başçımızdan xahiş etdi ki, bizə 1 milyard kubmetr qaz verin və söylədi ki, bizim qazla təchizatımız ölkədə 3 faizdir. Azərbaycanda isə 95 faizə çatıb. Bu, çox böyük, titanik işin nəticəsidir.

**Aparıcı:** Bəzi qüvvələrin bütün bu layihələrin reallaşdırılması istiqamətində Azərbaycana istənilən formada maneə törətmək, problem yaratmaq istəklərindən danışaq. Rasim müəllim, NABUCCO kimi alternativ layihələr təklif edilirdi, lakin öz əksini tapmadı, reallaşmadı və hətta iş o yerə çatdı ki, Azərbaycanla Rusiya arasındakı münasibətlərin pozulması istiqamətində erməni lobbisi, erməni diasporu konkret fəaliyyət göstərdi. Biz burada Azərbaycan-Amerika Birləşmiş Ştatlarını qeyd etdik, amma Rusiya faktoru da burada var.

**Rasim Musabəyov:** NABUCCO nümunəsi göstərir ki, düzgün siyasi hesablama aparılmadığı halda, layihə yalnız kağız üzərində qalır. Azərbaycan isə, məncə, birinci növbədə o əməkdaşlığı təmin etməyə və qısqanclığı aradan qaldırmağa çalışdı. İndi hamı deyir ki, bazarda dünya üzrə ən böyük qaz ehtiyatı Rusiyaya məxsusdur. İkinci yerdə İrandır. Biz isə onların arasında yerləşmişik. O dövlətlər bu layihələrin həyata keçirilməsini istəməzdi. Baxın, "Şahdəniz" layihəsində Rusiyanın da payı var, İranın da. Biz isə riskləri neytrallaşdıraraq əməkdaşlığı təmin edirik.

Bir tərəfdən bazarda rəqabət var, ancaq Azərbaycan həm "Qazprom"la, həm də İranla lazımi münasibətlər qurmuşdu. Marşrutlarla əməkdaşlıq etmək bu təzyiqləri və riskləri aşağı saldı. Azərbaycanı istəməyən qüvvələr çalışırdı ki, Azərbaycan nə Avropa, nə də Asiya Bankından maliyyə dəstəyi əldə edə bilməsin. Lakin o maliyyə qurumları anlayırdılar ki, həmin layihənin əhəmiyyəti siyasi konyunkturadan, ucuz təbliğatdan qat-qat üstündür.

**Aparıcı:** İstərdim ki, digər məqama toxunaq. Bəxtiyar müəllim, faktiki olaraq, gələn ay artıq TANAP-ın açılışı olacaq və Türkiyə bazarına 6 milyard kubmetr, eyni zamanda, 2020-ci ildə daha 20 milyard kubmetr qaz ötürüləcək, 2026-cı ilə qədər isə kəmərin ötürmə qabiliyyətinin 31 milyard kubmetrə qədər artırılması mümkün olacaq. Xəzəryanı ölkələrin, xüsusi olaraq, Türkmənistanın, İranın, İraqın Cənub Qaz Dəhlizinə qoşulması ehtimalı nə dərəcədə böyükdür?

**Bəxtiyar Aslanbəyli:** İstənilən layihənin gerçəkləşdirilməsi, istənilən ixrac layihəsinin reallaşdırılması üçün iki vacib məqam var. Birinci, ölkədə hasilatın təmin olunması. Məsələn, bu gün İranın özünün ixrac potensialı yüksək deyil. İran təxminən 172 milyard kubmetr qaz istehsal edir. Onun təxminən 170 milyardı daxili istehlaka gedir. İxrac potensialı cəmi 2 milyard kubmetrdir. Təbii ki, İranın ixracı 7-8 milyarda qalxır, amma bu, Türkmənistandan alınan qazın hesabına mümkün olub, yaxud Türkmənistanda ehtiyatlar kifayət qədər zəngindir, yəni bizim ehtiyatlardan da çoxdur. Dünyanın təsdiq olunmuş qaz ehtiyatlarına görə dördüncü ölkəsidir. Amma Türkmənistan o potensialını kifayət qədər reallaşdıra bilirmi? Təbii ki, yox. Əsas səbəb isə hasilatın tam həcmdə, geniş şəkildə həyata keçirilməsi üçün lazım olan investisiyaların, texnoloji dəstəyin və beynəlxalq dəstəyin olmamasıdır. Bizdə bu məsələ həll olunub. Azərbaycanda biz hasilat potensialımızı kifayət qədər effektli və səmərəli şəkildə reallaşdıra bilirik.

İkinci məsələ hasilat, ixrac potensialı və ixracın reallaşmasıdır. Cənub Qaz Dəhlizinin reallaşması ixrac bazarının diversifikasiyası nöqteyi-nəzərindən əhəmiyyətlidirsə, Avropa Birliyi ölkələri və mənbələrin diversifikasiyası üçün də əhəmiyyətlidir. Yəni, bu, qarşılıqlı əhəmiyyətə, qarşılıqlı mənfəətə dayanan bir əməkdaşlıqdır və bu reallığı müvafiq beynəlxalq qurumlara və güclü mərkəzi olan dövlətlərin aparıcı siyasi təşkilatlarına çatdırmaqla beynəlxalq dəstək əldə etmiş oluruq.

Avropa Birliyinin istehlakı ildə təqribən 500 milyard kubmetrdir. Amma bizim 10 milyard kubmetr ümumi səbətdə çox geniş xüsusi çəkiyə malik olmasa da, ayrı-ayrı ölkələrin istehlak səbətindən kifayət qədər əhəmiyyətli çəkiyə malik olacaq.

Məsələn, Bolqarıstanın misalı qeyd olundu. Nəzərdə tutulan ixrac həcmləri 1 milyard kubmetrdir. 1 milyard kubmetr Bolqarıstan istehlakının təqribən 50 faizi deməkdir. Ayrı-ayrı ölkələrin, məsələn, Yunanıstanın, İtaliyanın istehlak səbətində Azərbaycandan ixrac ediləcək təbii qazın payı kifayət qədər yüksək olacaq və bu, nəticə etibarilə həmin ölkələrin qaz idxalının bir ölkədən, bir mənbədən asılılığını ciddi şəkildə azaltmış olacaq. Avropa Birliyi nöqteyi-nəzərindən isə ümumi bazarda istehlak səbətinin çəkisi az olsa da, Cənub Qaz Dəhlizinin əhəmiyyəti sadəcə 10 milyard kubmetr deyil, eyni zamanda, bu infrastrukturun gələcəkdə də əlavə qaz həcmlərinin Avropaya çatdırılması üçün yeni bir ixrac sistemində olmasındadır. Məsələn, NABUCCO layihəsinin ideyası gözəldir, ideyanı reallaşdırmaq üçün isə siyasi iradə və maliyyə mənbələri vacibdir. Bu məsələni NABUCCO layihəsi həll edə bilmədi, amma nəticə etibarilə, Azərbaycanın siyasi iradəsi nəticəsində Cənub Qaz Dəhlizi reallaşdı. Yəni, bütövlükdə götürdükdə, bu boru ixrac kəməri Azərbaycanın həm qeyri-Şahdəniz yatağından olan qaz ehtiyatlarının, həm də Azərbaycandan kənar, Xəzər hövzəsinin şərq sahillərindən olan digər ölkələrin gələcəkdə ixracına xidmət edə bilər. Məsələn, gələcəkdə hər hansı bir formada Türkmənistan, İran, Şimali İraqdan olan qaz ehtiyatları ola bilər ki, onlar bütövlükdə həmin boru kəmərləri vasitəsilə ixrac olunar. Bəzən sual olunur ki, Azərbaycanda boru kəmərini dolduracaq qədər qaz ehtiyatları varmı? Bu gün Avropa Birliyində ixrac potensialı 10 milyard kubmetrdir, bu, gələcəkdə 20 milyard kubmetrə qədər artırıla bilər, TANAP boru kəməri isə 32 milyard kubmetrdir.

Əvvəla, onu qeyd edim ki, ixrac potensialının, ötürmə qabiliyyətinin kompressor stansiyaları vasitəsilə artırılması mümkündür. TANAP 16-dan 32-yə, TAP 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər ixrac potensialını artırır. Azərbaycanda, təbii ki, bu qədər ixrac potensialı var. "Şahdəniz" layihəsindən başqa, Abşeron, həmçinin Şəfəq-Asiman, Azəri-Çıraq-Günəşli, Şahdəniz-3, Ümid-Babək və s. layihələr var. Mən hələ potensial neft yataqlarını demirəm,sadaladıqlarım hamısı potensial qaz ehtiyatlarıdır. Artıq həlli bəlli olan qaz ehtiyatlarının tam həcmdə işlədilməsi, hasilatı gələcəkdə ixrac potensialının ikiqat artırılmasına da xidmət edə bilər.

**Aparıcı:** Biz Cənub Qaz Dəhlizi layihəsinin regional və qlobal miqyasda əhəmiyyətindən danışdıq. Təbii ki, bunun Azərbaycan xalqına, Azərbaycan vətəndaşına verəcəyi dividendlərə də toxunduq. Cənab prezidentin bir fikri var ki, Azərbaycan hələ bundan sonra yüz il ərzində həm özünü, həm digər ölkələri qazla təmin etmək gücündədir. Ziyad müəllim, bu haqda fikirlərinizi eşitmək istərdim.

**Ziyad Səmədzadə:** 1960-cı illərin əvvəllərində amerikalılar belə bir kitab buraxmışdılar:«Ресурсы в США». 1966-cı ildə də məşhur iqtisadçı, Nobel mükafatı laureatı Fritz Machlupun "Производство и расспространение знаний в США" ("Amerika Birləşmiş Ştatlarında biliklərin istehsalı və yayılması") adlı kitabı işıq üzü gördü. Çoxlarımız, düşünürdük ki, biliklər necə istehsal olunur, yayılır. Azərbaycanın 100 illiyi ilə əlaqədar olaraq iqtisadi inkişafını təmin edən amillər var. Ölkə, ilk növbədə iqtisadiyyatı müəyyən edən amillərə malik olması ilə inkişaf edir. Bizim də artıq güclü iqtisadi potensialımız, nəqliyyat sektorumuz, inşaat kompleksimiz var, aqrar-sənaye kompleksimiz yaradılır. Emal sənayemizin strukturu qısa zaman kəsiyində köklü surətdə dəyişilir. Metallurgiya inkişaf edir, kimya kompleksi yeniləşir, maşınqayırma zavodları, sənaye məhəllələri, sənaye parkları yaradılır, bütövlükdə isə bunlar Azərbaycanın iqtisadi potensialını artırır. Təbii ki, bunun üçün maliyyə resursları tələb olunur. O maliyyə resurslarını təmin edən ən əsas amillərdən biri yanacaq-energetika resurslarıdır, valyuta ehtiyatlarımızdır.

Cənab prezident qeyd edir ki, "İnkişaf etmiş ölkələrin əsas göstəricilərinə nail olaq". Bunun üçün nə etmək lazımdır? İstehsalı, turizmi inkişaf etdirmək, maliyyə vəsaitlərindən düşünülmüş şəkildə yararlanmaq lazımdır. Heç şübhəsiz ki, Azərbaycan qısa zaman kəsiyində inkişaf etmiş ölkələr səviyyəsinə çatacaqdır. Əgər biz son 15 ildə büdcə gəlirlərimizi 10 dəfə artırmışıqsa, iri layihələr həyata keçirmişiksə, güclü elektrik stansiyaları tikmişiksə, çox gözəl yollar salmışıqsa, ölkənin qaz təchizatını 95 faizə çatdırmışıqsa, içməli su problemini həll ediriksə, Azərbaycan ərazisində formalaşan tullantıların kompleks istifadəsinə nail oluruqsa, ən başlıcası insan kapitalının güclənməsi üçün fədakarcasına işlər görürüksə, təbii ki, bir çox uğurların da qazanılmasına nail olacağıq.

# "Neman İKF "MMC-nin 31 dekabr 2017-ci il tarixə (icmal) Balans Hesabatı

| | | | manatla |
|---|---|---|---|
| **AKTİVLƏR** | **Qeyd** | **31 dekabr 2017-ci il** | **31 dekabr 2016-cı il** |
| Uzunmüddətli aktivlər | | | |
| Torpaq,tikili və avadanlıqlar(əsas vəsaitlər) | 7 | 3251102,76 | 3209364,82 |
| Qeyri- maddi aktivlər | | 574415,00 | 574415,00 |
| İnvestisiyalar | | 29079,61 | 240208,02 |
| İştirak payı metodu ilə uçotu alınmış investisiyalar | | 3000000,00 | 3000000,00 |
| | | **6854597,37** | **7023987,84** |
| Qısamüddətli aktivlər | | | |
| Ehtiyatlar | 8 | 4241692,51 | 2003919,31 |
| Qısamüddətli debitor borcları | 9 | 669498,20 | 175856,00 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 119190,64 | 13337,32 |
| Sair qısamüddətli aktivlər | 10 | 69445,50 | 50590,46 |
| Sair qısamüddətli maliyyə aktivləri | | - | - |
| | | **5099826,05** | **2243703,09** |
| **CƏMİ AKTİVLƏR** | | **11954423,42** | **9267690,93** |
| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapital | 16 | 3000100,00 | 3000100,00 |
| Kapital ehtiyatları | | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 47734,33 | -352049,68 |
| **Cəmi Kapital** | | **3047834,33** | **2648050,32** |
| Öhdəliklər | | | |
| Uzunmüddətli öhdəliklər | | | |
| Uzun müddətli faiz xərcləri yaradan öhdəliklər | 12 | - | - |
| Qısamüddətli öhdəliklər | | | |
| Qisamüddətli faiz xərcləri yaradan öhdəliklər | 13 | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 14 | - | - |
| Qisamüddətli kreditor borcları | 15 | 3467692,11 | 1635532,77 |
| Sair qısamüddətli öhdəliklər | | 5438896,98 | 4984107,84 |
| | | **8906589,09** | **6619640,61** |
| CƏMİ ÖHDƏLİKLƏR | | **8906589,09** | **6619640,61** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **11954423,42** | **9267690,93** |

**31 dekabr 2017-ci il tarixə MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATİ (icmal)**

| | Qeyd | 2017-ci il | 2016-cı il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 17 | 3017484,45 | 1036737,11 |
| Satışın maya dəyəri | 20 | -2810431,3 | -932463,69 |
| Ümumi mənfəət, zərər | | **207053,15** | **104273,39** |
| Sair əməliyyat gəlirləri (icarədən) | 18 | 389021,47 | 26000,00 |
| İnzibati xərclər | 21 | -46574,61 | -44579,73 |
| Əməliyyat mənfəəti (zərəri) | | | |
| Mənfi məzənnə fərqi | 22 | 63662,36 | - |
| Məzənnə fərqi | | -20292,28 | - |
| Vergi tutmadan əvvəl mənfəət (zərər) | | **592870,09** | **85693,66** |
| Mənfəət vergisi | 23 | **-118574,02** | **-17138,73** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | **474296,06** | **68554,93** |

**31 dekabr 2017-cı il tarixə Kapitalda dəyişikliklər hesabatı (icmal)**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **01.01.2016-ci il tarixə qalıq** | **3000100,00** | **(398969,55)** | **2601130,45** |
| 2016-cı il üzrə mənfəət (zərər) | - | 68554,89 | 68554,89 |
| Maddələr arasında köcürülmələr | - | **-21632,02** | **-21632,02** |
| **31dekabr2016-cı il tarixə qalıq** | **3000100,00** | **(352049,68)** | **2648050,32** |
| 2017-cı il üzrə xalis mənfəət (zərər) | | 474296,06 | 474296,06 |
| Maddələr arasında köcürülmələr | | -74512,35 | -74472,05 |
| **31 dekabr 2017-ci il tarixə qalıq** | **3000100,00** | **47734,33** | **3047834,33** |

Maliyyə hesabatlarının mötəbərliyi AR Auditorlar Palatası tərəfindən verilmiş 05.01.2010-cu il tarixli SA/237 saylı, 047441 seriyalı lisenziyaya əsasən fəaliyyət göstərən sərbəst auditor **Xaləddin Cəlal oğlu Əliyev** tərəfindən təsdiqlənmişdir.

# Nəqliyyat və rabitə sektoruna böyük məbləğdə kredit verilib

Aprel ayında Azərbaycanda bankların müştərilərə verdiyi kreditlərin artdığı açıqlanıb.

Mərkəzi Bankın statistikasına əsasən, apreldə müştərilərə verilmiş kreditlər 152,3 milyon manat artaraq 11 milyard 815,8 milyon manata çatıb. Artımın əsas səbəbi bir ayda nəqliyyat və rabitə sektoruna verilmiş kreditlərin 111,9 milyon manat artması olmuşdur.

Belə ki, aprel ayında:

-ticarət və xidmət sektoruna verilən kreditlər 11,7 milyon manat azalaraq 1 milyard 991,8 milyon manata geriləyib;

-energetika, kimya və təbii ehtiyatlar sektoruna verilən kreditlər 3 milyon manat azalaraq 308,7 milyon manata geriləyib;

-inşaat və əmlak sektoruna verilən kreditlər 14,1 milyon manat azalaraq 515,3 milyon manata düşüb;

-kənd təsərrüfatı və emala verilən kreditlər 4,7 milyon manat artaraq 455,9 milyon manata yüksəlib;

-sənaye və istehsal sektoruna verilən kreditlər 21,1 milyon manat artaraq 675,2 milyon manata yüksəlib;

-nəqliyyat və rabitəyə verilən kreditlər 111,9 milyon manat artaraq 1 milyard 104,8 milyon manata yüksəlib;

-ev təsərrüfatlarına verilən kreditlər (əsasən istehlak kreditləri) 54,3 milyon manat artaraq 4 milyard 689,4 milyon manata yüksəlib;

-ictimai təşkilatlara verilmiş kreditlər 200 min manat azalaraq 9,8 milyon manata düşüb;

-hökumət idarələrinə verilmiş kreditlər 100 min manat azalaraq 900 min manata düşüb;

-digər sektorlara verilmiş kreditlər 0,8 milyon manat artaraq 149,4 milyon manata yüksəlib.




# Azercell uşaq hüquqlarının qorunmasına dair aksiya keçirdi

1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi gününə həsr olunmuş layihə Park Bulvar TM-in tərəfdaşlığı ilə keçirildi.

1949-cu ildə keçirilmiş Qadınların Beynəlxalq Demokratik Federasiyasının Konqresi 1 iyun tarixini Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd etməyi qərara alır. Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir. Azərbaycan rabitə bazarının lider mobil operatoru "Azercell Telekom" MMC bu il də ənənəsinə sadiq qalaraq, Uşaqların Beynəlxalq Müdafiəsi gününə həsr olunmuş silsilə tədbirlər keçirdi. Belə ki, Azercell Telekom-un təşəbbüsü və Park Bulvar TM-in tərəfdaşlığı ilə Pantomima Teatrının aktyorları tərəfindən hazırlanan səhnəciklər ilk olaraq 26 may tarixində Park Bulvarda nümayiş olunub. Böyük marağa səbəb olan səhnəciklər cəmiyyətdə uşaqlara qarşı psixoloji və fiziki zorakılığa son qoyulması, onlara diqqət və qayğı göstərilməsinin önəmli olması mesajını ötürüb. İzləyicilərə uşaq zorakılığına qarşı mübarizənin simvolu olan mavi lent və Azercell-in təşəbbüsü ilə yaradılan "Uşaq Qaynar Xətti" mobil tətbiqinin istifadə qaydaları haqqında broşurlar paylanılıb. Şəhər əhalisi bu səhnəcikləri 1 iyun tarixi saat 19:00-20:00 arası və 2-3 iyun tarixləri saat 20:00-21:00 arası Park Bulvar TM-də, 2-3 iyun tarixləri saat 18:00-19:00 arası isə Fəvvarələr Meydanında izləyə biliblər.

"Azercell Telekom" MMC uşaq hüquqlarının qorunmasına, uşaqların sağlamlığı və təhsilinə yönəlik layihələrə öz Korporativ Sosial Məsuliyyət siyasətində xüsusi önəm verir. Şirkət 2010-cu ildə yaranmasına baxmayaraq, yardım etdiyi və hər il dəstəklədiyi "Uşaq Qaynar Xətti" xidmətinin tərəfdaşı, kimsəsiz uşaqlara və xüsusi qayğıya ehtiyacı olan əhaliyə pulsuz tibbi xidmət göstərən "Mobil Diş" və "Mobil Göz" klinikalarının yaradıcısıdır. Eyni zamanda, artıq dördüncü ildir ki, Azercell Uşaq Paralimpiya Komitəsinə dəstək verməkdə davam edir. Azercell-in uşaq hüquqlarının qorunması ilə bağlı yeni sosial istiqaməti isə onların İnternet şəbəkəsindən təhlükəsiz istifadəsi üçün imkanların genişləndirməsilə bağlıdır və bu sahədə Azercell həm texnoloji addımlar atmış, həm də müxtəlif maarifləndirici tədbirlərin həyata keçirilməsinə başlamışdır.

# İsrailin Azərbaycandakı səfiri Azercell şirkətinin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzini ziyarət etdi



"Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin fəaliyyəti və həyata keçirdiyi layihələr yerli və beynəlxalq təşkilatların marağına səbəb olub. Belə ki, İsrailin Azərbaycandakı səfiri cənab Dan Stav Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin strategiyası, hədəfləri və maraqları barədə daha ətraflı məlumat əldə etmək üçün mərkəzdə qonaq olub. İsrail XİN-in gənc diplomatları - xanım Hila Rouzfeldin, cənab Mayk Driquezin, Azercell-in Strategiya və İnnovasiya şöbəsinin və Barama Mərkəzinin rəhbəri İmran Bağırovun, şirkətin Korporativ Ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskayanın, PAŞA Bankın Dayanıqlı İnkişaf Məsələləri üzrə aparıcı meneceri Ceyhun Atayevin və digər Azercell nümayəndələrinin iştirak etdiyi görüşdə startaplarla İsrail şirkətləri arasında əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb. İsrail rəsmiləri korporativ sosial məsuliyyət və innovativ həllər sahələrində Barama mərkəzi ilə əməkdaşlığa açıq olduqlarını bildiriblər. Səfir Dan Stav Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin fəaliyyətini və yerli startaplara dəstəyin yüksək qiymətləndirdiyini vurğulayıb. Səfir bütün istiqamətlərdə Azərbaycan və İsrail arasında əlaqələrin genişləndirilməsində marağını ifadə edərək, gələcəkdə qarşılıqlı münasibətlərin möhkəmlənməsi üçün çalışacağını bildirib.

Öz növbəsində Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin rəhbəri İmran Bağırov mərkəzin gələcək fəaliyyəti, yaxın vaxtlarda həyata keçirəcəyi beynəlxalq layihələri haqqında qonaqlara məlumat verib.

Qeyd edək ki, Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi 2009-cu ildə "Azercell Telekom" MMC tərəfindən Azərbaycanda biznes innovasiyasını artırmaq, rəqəmsal və sahibkarlıq ekosistemini inkişaf etdirmək və qoruyub saxlamaq üçün yaradılıb. Əsas məqsədi startupların öz bizneslərini qurmasına, müasir xidmətlər göstərməsinə və yeni müştərilər əldə etməsinə kömək etmək olan Barama Mərkəzi 2015-ci ildən etibarən ölkənin aparıcı şirkətlərindən biri olan PAŞA Bank tərəfindən dəstəklənir. 9 il ərzində Baramada 80-dən çox layihə fəaliyyətə başlayıb, onlardan 20-si hazırda müstəqil şirkətlərdir. Hər il mərkəz Hackathon, Barama Yeniyetmələr Akademiyası - İT Məktəbi, Mentorlarla Səhər yeməyi, Stupid Idea Day və s. kimi 50-dən çox tədbir təşkil edir. Barama Mərkəzənin hal hazırda həm Bakı, həm də bölgələrdə 5 fiziki ofisi var: Baş Ofis, Bakı Dövlət Universiteti, Baku ABC School, Gəncədə Azərbaycan Texnologiya Universiteti, Lənkəran Dövlət Universiteti.

# "ATAHOLDİNG" MMC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

| | | *(Azərbaycan manatı ilə)* |
|---|---|---|
| | **31 dekabr 2017** | **31 dekabr 2016** |
| **AKTİVLƏR:** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1 181 021 | 7 627 011 |
| Azərbaycan Respublikası Mərkəzi Bankında yerləşdirilmiş məcburi ehtiyatlar | - | 2 347 509 |
| Banklardan alınacaq vəsaitlər | 31 150 497 | 21 039 841 |
| Müştərilərə verilmiş kreditlər | - | 410 234 592 |
| Satıla bilən investisiyalar | 1 150 500 | 20 458 102 |
| Debitor borcları | 3 692 119 | 1 839 950 |
| Asılı müəssisələrə investisiyalar | 779 042 | -62 858 204 |
| Təxirəsalınmış mənfəət vergisi aktivləri | - | 1 481 665 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 10 285 458 | 20 746 252 |
| Sair aktivlər | 51 682 716 | 12 161 396 |
| **CƏMİ AKTİVLƏR** | **99 921 353** | **435 078 114** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | |
| **ÖHDƏLİKLƏR:** | | |
| Müştərilər və banklar tərəfindən yerləşdirilmiş depozitlər | - | 282 231 323 |
| Digər borc öhdəlikləri | 8 228 585 | 117 755 734 |
| Qazanılmamış sığorta haqları ehtiyatı və zərərlər ehtiyatı | 11 497 451 | 858 343 |
| Sair öhdəliklər | 4 139 521 | 9 515 231 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **23 865 557** | **418 090 631** |
| **KAPİTAL:** | | |
| Nizamnamə kapitalı | 79 983 664 | 125 345 000 |
| Əlavə ödənilmiş kapital | - | 8 046 896 |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə ehtiyat | 2 267 | -4 408 |
| Yığılmış zərər | -4 275 386 | -127 873 290 |
| Nəzarət olunmayan iştirak payı | 345 251 | 11 473 285 |
| **CƏMİ KAPİTAL** | **76 055 796** | **16 987 483** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **99 921 353** | **435 078 114** |

| | | *(Azərbaycan manatı ilə)* |
|---|---|---|
| | **31 dekabr 2017** | **31 dekabr 2016** |
| Gəlirlər | 23 847 309 | 83 400 107 |
| Satışların maya dəyəri | -4 574 852 | -37 053 769 |
| **Ümumi mənfəət** | **19 272 457** | **46 346 338** |
| Faiz hesablanan maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyat | | -18 348 255 |
| Xarici valyuta əməliyyatları üzrə xalis gəlir | -78 099 | 7 561 402 |
| Asılı müəssisələrin mənfəətində /(zərərində) pay | 119 390 202 | -69 106 179 |
| Digər əməliyyatlar üzrə ehtiyat | -8 070 726 | |
| Əməliyyat xərcləri | -37 249 438 | -35 806 957 |
| **Əməliyyat gəliri /(zərəri)** | **93 264 396** | **-69 353 651** |
| Maliyyə gəliri /(zərəri) | 30 434 641 | 1 331 009 |
| **Mənfəət vergisindən əvvəlki gəlir/ (zərər)** | **123 699 037** | **-68 022 642** |
| Mənfəət vergisi xərci | -101 121 | -529 463 |
| **İL ÜZRƏ XALİS GƏLİR/ (ZƏRƏR)** | **123 597 916** | **-68 552 105** |
| İl üzrə sair məcmu gəlir | - | 219 932 |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR/ (ZƏRƏR)** | **123 597 916** | **-68 332 173** |

MOSSADAMS

**Müstəqil Auditorun Rəyi**

"ATAHOLDİNG " MMC -nin Rəhbərliyinə

**Rəy**

Biz "AtaHolding" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 Dekabr 2017-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti hesabatı, həmin tarixdə başa çatmış il üzrə gəlir hesabatı, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcədə əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Milli Mühasibat Uçotu Standartlarına uğun olaraq düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti "bölməsində əks etdirilir. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Müstəqillik**

Biz mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Cəmiyyətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk.

**Maliyyə hesabatlarına görə rəhbərliyin məsuliyyəti.**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Cəmiyyəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Cəmiyyətin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

*Moss Adams Azerbaijan LLC*

04 İyun 2018-ci il
Bakı, Azərbaycan Respublikası.

Bakı, Azərbaycan Respublikası, AZ 1065, Yasamal rayoun, C. Cabbarlı küç 44 Caspian Plaza, 14-cü mərtəbə, Tel/ Fax: (+994 12) 480 63 12, Mobil: (+994 50) 235 29 30, E-mail: office@mossadams.az, Lisenziya № 080848, AT/117

# Fondun Müşahidə Şurasının növbəti iclası keçirilib




İyunun 5-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açıq elan edərək gündəlikdəki məsələlər barədə məlumat verib:

1. Fondun jurnalist təşkilatları üçün "Azərbaycan mətbuat məkanında ədəbi dilin qorunması", "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzularında elan etdiyi müsabiqəyə təqdim olunmuş sənədlərin müzakirəsi və təsdiqi;
2. 2018-ci ilin ikinci yarısı üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elanının müzakirəsi və təsdiqi;
3. Cari məsələlər.

Gündəlikdəki birinci məsələ barədə məlumat vermək üçün söz Fondun icraçı direktoru Vüqar Səfərliyə verilib. İcraçı direktor jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və mediada ədəbi dilin normalarının qorunması məqsədilə Fondun 2018-ci il mayın 4-də jurnalist təşkilatları üçün ənənəvi olaraq "Azərbaycan mətbuat məkanında ədəbi dilin qorunması" və "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzularında müsabiqə elan etdiyini xatırladıb. Fondun icraçı direktoru mayın 22-dək davam etmiş müsabiqəyə 4 ictimai təşkilatın - Azərbaycan Mətbuat Şurası, Jurnalistlərin Həmkarlar İttifaqı, Elektron Mediaya Yardım Fondu və Media və Mülki Cəmiyyət İctimai Birliyinin layihə sənədləri təqdim etdiklərini bildirib.

Sonra müsabiqəyə təqdim edilmiş sənədlər Müşahidə Şurasının üzvlərinə paylanılıb və məsələ ətrafında müzakirələr aparılıb. Müşahidə Şurasının sədri Həsən Həsənov, üzvlərdən - Bəhruz Quliyev, İntiqam Hümbətov, Rasim Həsənov və Ayaz Mirzəyev mediada ədəbi dilin tələblərinin qorunması və jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə jurnalist təşkilatları üçün elan edilmiş müsabiqənin əhəmiyyətini önə çəkiblər.

Şura üzvləri Azərbaycan Mətbuat Şurası, Jurnalistlərin Həmkarlar İttifaqı və Elektron Mediaya Yardım Fondunun təqdim etdikləri sənədlərin qaydasında olduğunu, onların maddi-texniki bazalarının tələblərə cavab verdiyini, habelə çoxillik təcrübələrini xüsusi vurğulayıb, onların layihə təkliflərini daha üstün dəyərləndiriblər. Müzakirələr zamanı qeyd olunub ki, "Azərbaycan mətbuat məkanında ədəbi dilin qorunması" istiqaməti üzrə layihənin uğurlu icrası baxımından Azərbaycan Mətbuat Şurasının maddi-texniki bazası, kadr potensialı və təcrübəsi Media və Mülki Cəmiyyət İctimai Birliyi ilə müqayisədə daha yüksəkdir.

Müzakirələrin yekununda müsabiqəyə sənəd təqdim etmiş 4 təşkilatdan 3-nün - Azərbaycan Mətbuat Şurası, Jurnalistlərin Həmkarlar İttifaqı və Elektron Mediaya Yardım Fondu İctimai Birliyinin müsabiqənin qalibləri elan edilməsi, onların hər birinə 2 mərhələdə (hər dəfə 10.000 min manat) 20.000 manat məbləğində vəsaitin ayrılması barədə qərar qəbul olunub.

İclasın gündəliyindəki ikinci məsələ barədə məlumat verən Fondun icraçı direktoru Vüqar Səfərli bildirib ki, 2018-ci ilin ikinci yarısı üzrə KİV-ə maliyyə yardımı müsabiqəsinin ənənəvi olaraq "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 istiqamət üzrə keçirilməsi təklif olunur. V.Səfərli 2018-ci il iyunun 6-dan 25-dək keçirilməsi planlaşdırılan müsabiqənin elanında hər hansı əlavə və dəyişikliklərin nəzərdə tutulmadığını bildirib.

Müşahidə Şurasının üzvləri müzakirə olunan məsələ ilə bağlı rəy və təkliflərini bildiriblər. Şuranın sədri Həsən Həsənov, üzvlərdən - Bəhruz Quliyev, İntiqam Hümbətov, Rasim Həsənov və Ayaz Mirzəyev Fondun maliyyə yardımı müsabiqələrinin çap mediasının maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından əhəmiyyətini xüsusi qeyd ediblər. Daha sonra müsabiqənin elanı səsə qoyularaq təsdiq edilib.

Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor Vüqar Səfərli Fondun perspektiv fəaliyyət istiqamətləri barədə məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# Yerli dondurma bazarının lideri

İsti yay günləri artıq başlayıb. İnsanların sərinləşdirici içkilərə və məhsullara olan tələbatı da gündən-günə artır. Hər yerdə müxtəlif çeşiddə bir-birindən həm görünüşcə, həm də keyfiyyətcə fərqli, müxtəlif qiymətlərdə dadlı, ləzzətli dondurmalar satılır. Bu məhsulların bir qismi xaricdən idxal olunur, əsas hissəsi isə yerli istehsaldır. Yerli istehsal xaricdən gətiriləndən, demək olar ki, 2-3 dəfə ucuzdur. Bəs, bu bolluqda insan sağlamlığına zərər vurmayan, gələcəyimiz olan uşaqların faydalana biləcəyi hansı dondurmalara üstünlük verək?

**Qiymətindən asılı olmayaraq, keyfiyyətli dondurmanı necə fərqləndirə bilərik?**

İnsanlar dondurmanı məhz keyfiyyətinə görə seçdiklərini bildirirlər. Bəzi insanlar isə xarici istehsal olan dondurmaların daha keyfiyyətli və dadlı olduğunu hesab edirlər. Lakin artıq "xaricdən gətirilibsə, daha keyfiyyətlidir" fikri ilə razılaşmayanların sayı da çoxalıb. Belə ki, insanlar son zamanlar yerli istehsalın da keyfiyyətli olduğunun şahididirlər. Sevindirici haldır ki, hazırda Azərbaycanın dondurma bazarında yerli məhsullar 70-80 faiz paya malikdir.

Hazırda bazarda 10-a yaxın yerli dondurma istehsal edən şirkət fəaliyyət göstərir. Bu gün onlardan biri, ölkəmizdə nə az-nə çox, düz 20 ildir fəaliyyət göstərən "AER Company Group" MMC-dən söhbət açmaq istərdik.

**"AER Company Group" MMC: 20 il bizimlə**

Şirkət "AER" ticarət nişanı altında 70-ə yaxın çeşiddə dondurma istehsal edir. Hər kəsin sevdiyi, xüsusilə də, uşaqların xoşladıqları "Belıye noçi", "Oazis", "Oreşek", "Daşa", "Magnam", "Eskimo", "Boqatır", "Nağıl", "Lakomka", "Plombir", "Bizim Bakı", "Kaspi", "Fantaziya", "Melisa", "Premium", "Yasif", "Zimuşka zima" və s. dondurmaları məhz bu şirkət tərəfindən buraxılır.

Bu gün şirkət Azərbaycan dondurma bazarında aparıcı yerlərdən birini tutur. Malik olduğu resurslar hesabına bu gün şirkət nəinki Azərbaycanda məhsullarını reallaşdırır, həm də bir sıra xarici ölkələrə də məhsul ixrac edir. İstehsal prosesində yeni texnologiyaların tətbiqi sahəsində daim təkmilləşmə işləri gedir. Şirkət dondurma istehsalında yüksək keyfiyyətli ərzaq məhsullarından istifadə edir.

AER şirkəti daxili bazarda da süd məhsullarının əsas istehsalçılarındandır. O, xammala olan tələbatını ödəmək üçün ölkənin müxtəlif regionlarındakı fermerlərdən hər gün 10-15 ton təbii süd alır. Süd, əsasən, Ağcabədi, Saatlı, Sabirabad və Qusar zonasından əldə olunur. İstifadə olunan xammal məhsullarının və istehsal olunan dondurmanın keyfiyyətinin və təhlükəsizliyinin yoxlanılması üçün şirkət yüksək texnologiyalarla təchiz olunmuş və Avropa standartlarının tələblərinə cavab verən laboratoriyaya malikdir.

Məhsul çeşidinin keyfiyyətinə və təhlükəsizliyinə Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun şəkildə nəzarət edilir. Bu da istehlakçıların tələblərinin ödənilməsinə xidmət edir.

**İnsan əli dəymədən istehsal olunan məhsul**

2003-cü ildə "AER Company Group" Danimarkanın Tetra Pak Hoyer şirkətindən İtaliyada istehsal olunmuş, tam yeni, Avropanın və dünyanın ən müasir texnologiyası ilə çalışan, kompüter və robotlarla idarə olunan Straigtline 600 istehsal xətti almışdır. "AER Company Group" MMC-nin təsisçilərindən biri olan Adil Şərifovun sözlərinə görə, avadanlığın buraxdığı batonlar, ruletlər və lakomka dondurmalarının 2007-ci ilə kimi Zaqafqaziyada analoq istehsalçısı olmayıb.

2006-cı ildə şirkətdə OLV universal dondurma xətti quraşdırılmışdır. Xəttin əsas hissəsi Pribaltika istehsalı olan mexaniki hissə olmasına baxmayaraq, onun qablaşdırılma hissəsi Ukraynadan gətirilib, soyutma hissəsi Avropanın ən müasir avadanlıqlarından yığılıb. Bundan əlavə, həmin xətdə əlavələr edilməklə və OLV dəzgahları qoyulmaqla avadanlığın funksiyasını artırmaqla vafli stəkandan əlavə, briket də istehsal edilir.



Bu dəzgahın üstünlüklərindən biri də avadanlığın robotlaşdırılmış olmasıdır. Yəni, dondurmalar insan əli dəymədən istehsal olunur. Xam südün qaymağı çəkiləndən sonra yağlılığı standarta uyğun normaya salınır və 2 tonluq bişmə qazanlarında 95 dərəcə temperaturda 10 dəqiqə bişir. Bişmiş süd filtr və hemogendən keçdikdən sonra müvafiq qatqılar əlavə olunur.

Hazır məhsul boru vasitəsilə digər qazana ötürülür və orada yağ süddən ayrılmasın deyə, homogenləşdikdən sonra soyudulur. Soyumuş hazır dondurma borular vasitəsilə tanklara vurulur. Tanklarda 8 saat ərzində dondurma özünə gəlir. Özünə gəlmiş dondurma "Frizer" aparatında mənfi 5 dərəcəyə qədər soyudulur.

Hazırda istehsalat müəssisəsində "Yasif" dondurmaları son istehsal prosesini keçir. Tetra Pak Hoyer avadanlığı ilə dondurma istehsal edərkən sadəcə bu hissədə insan təması olur. Belə ki, steril qaydalara əməl edilməklə "Frizer"dən çıxan dondurmalar torbalara yığılıb, ağzı bağlanır. Sonra həmin dondurmalar mənfi 40 dərəcəyə qədər dondurulur və satışa hazır olur. A.Şərifovun sözlərinə görə, "…bizim istehsalatda yalnız bir mərhələdə - qablaşdırma hissəsində işçilərin əllə təması olur. Orada da işçilər steril əlcək geyinirlər".

Straigtline avadanlığı vasitəsi ilə, həmçinin vafli stəkan, "Sendviç", "Çubuqlu Eskimo", "Rulet tort", batonlar, "Candy bar", "Lakomka", "Ailəvi külçələr", "Krimanka"lar, çəki ilə dondurmalar, tortlar, briketlər hazırlanır. Avadanlıq hər bir çeşiddə 307 növdə dondurma istehsal edir.

**Bütün proseslər steril həyata keçirilir**

Şirkətdə istifadə olunan avadanlıqlar potaş adlanan vasitə ilə yuyulur. Bu zaman bişmə qazanları qələvi məhlul ilə doldurulur. Temperatur 80-90 dərəcəyə qədər qaldırılır və eyni dondurma kimi proses keçir. Beləliklə, qazanlar və borular yağdan təmizlənir. Ardınca proses xlorlu su ilə təkrarlanır. Sonra təmiz su ilə yuyulur. Sonda firmanın laborantı qazanlardan yaxma götürür və analiz edir.

Firmanın özünəməxsus laboratoriyası var. Yoxlama və nəzarət işi bu laboratoriyada həyata keçirilir. Bu barədə şirkətin rəhbəri A.Şərifov deyir: "Bizim 2010-cu ildən bəri həm fiziki-kimyəvi, həm də mikrobioloji laboratoriyamız var. 2011-ci ildə akkreditasiya da etdirmişik. Laborantımız var, hər gün mütəmadi olaraq, nəinki dondurmaları, hətta dondurmada istifadə olunan xammalı əvvəlcədən yoxlayıb, sonra istehsala veririk, istehsal prosesində ona nəzarət edirik. Avropa standartlarından ikisini keçmişik: HASP və İSO. Onun tələblərindən biri də odur ki, dondurma istehsal olunub anbara yığılır. O anbardan mal götürülüb yoxlanılmalıdır. Problem çıxmazsa, satışa buraxmaq olar. Problem varsa, məhsul təkrar emal olunur. Yəni, bu, elə bir şeydir ki, istehsalçının nəzarətindən yayına bilməz".

**Azərbaycan dondurması İraqda**

Fəaliyyət göstərdiyi illər ərzində şirkət yerli bazardan başqa Gürcüstana, Qazaxıstana və İraqa dondurma ixrac etmişdir. Keçən il Mosulda müştərinin obyekti bombalandığına görə İraqa dondurma ixracı müvəqqəti dayandırılmışdı. Mosul terroristlərdən azad olunduqdan sonra İraqa dondurma ixracı bərpa olunmuşdur. A.Şərifovun sözlərinə görə, dondurma ixracı ilə bağlı İraq tərəfi ilə danışıqlar 3-4 ildir ki, aparılır. Bu müddətdə İraqa dəfələrlə sınaq partiyalar göndərilib və digər məsələlər dəqiqləşdirilib: "Buna qədər İraqa 4 il dalbadal, hər il bir TIR mal göndərmişdik. Məlum səbəblərə görə ixrac müvəqqəti dayandırılsa da, bu ilin mart ayından indiyədək İraqa 135 ton dondurma məhsulu göndərilib. May ayında dondurma yüklənmiş 10-cu TIR avtomobilini İraqa yola salmışıq, indiyədək 135 ton dondurma ixrac etmişik, bu da ölkəyə 270 min dollar valyutanın gəlməsi deməkdir. Hazırda İraqla 50 TIR-lıq müqavilə bağlanıb, dondurmalar mövsümün sonunadək – sentyabradək göndəriləcək, amma tələbatdan asılı olaraq ixracın həcmi 100 TIR-a qaldırıla bilər. AER-in dondurmaları İraqın bütün ərazisində – Bağdad, Mosul, Süleymaniyə, Ərbil və digər şəhərlərdə satılır".

Onu da qeyd edək ki, İraqa dondurma satışı ilə bağlı müqavilə imzalamaq və ixraca başlamaq asan olmayıb: "Məsələ bundadır ki, bu bölgədə dondurma və süd məhsulları istehsalı üzrə İranın və Türkiyənin böyük şirkətləri çalışır, onlar İraq bazarına da nəzarət edirlər. Amma bizim inadkarlığımız və danışıqlarımız, həm də malımızın keyfiyyəti sayəsində bu bazara Azərbaycan məhsulları çıxara bildik", - deyə o, əlavə edib.

AER İraqa təkcə dondurma göndərməklə kifayətlənməyəcək, hazırda bu ölkəyə digər süd məhsulları – ayran, pendir və yoqurt ixracı üçün də danışıqlar aparılır: «İndi bununla bağlı danışıqlar gedir, məsələ bundadır ki, onlarda məhsullarla bağlı tələblər bizimkindən fərqlənir, ona görə də tez-tez sınaq patiyaları göndərilir və məhsullar yoxlanılır». Artıq bu ilin yayından İraqa ayran ixracına başlamaq da nəzərdə tutulur, - deyə A.Şərifov bildirib.

Şirkətdən yaxın vaxtlarda Qazaxıstana və Türkmənistana da süd məhsullarının ixracı gözlənilir. Belə ki, dondurma və digər süd məhsulları Orta Asiya ölkələrinə, Qazaxıstana və Türkmənistana göndəriləcək.

**Yeganə MƏMMƏDOVA**

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ PLATFORMASI



## Ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindəndir

İyun ayının 1-də Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş "Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Tədbir Təhsil Nazirliyi, Azərbaycan Kooperasiya Universiteti (AKU), Azərbaycan İqtisadçılar İttifaqı və Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi tərəfindən təşkil olunub.

Müvafiq qurumların nümayəndələrinin, Milli Məclis deputatlarının, Azərbaycan, Türkiyə, Rusiya və digər ölkələrdən olan alim və mütəxəssislərin iştirak etdikləri beynəlxalq konfransda AKU-nun rektoru, Milli Məclisin deputatı, professor Eldar Quliyev Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki müstəsna rolundan danışıb. Rektor Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamının əhəmiyyətini diqqətə çatdırıb.

Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə şərəfli iz qoyduğunu deyən Eldar Quliyev bildirib ki, Cümhuriyyət dövründə dövlətçiliyimiz yolunda çox önəmli islahatlar həyata keçirilib, mühüm tarixi nailiyyətlər əldə olunub.

Dahi rəhbər, ümummilli lider Heydər Əliyevin müasir müstəqil dövlətimizin qurulmasında və inkişafında misilsiz tarixi xidmətlərindən, siyasətinin uğurlu nəticələrindən bəhs edən rektor ulu öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini vurğulayıb, ölkəmizin sürətlə inkişaf etdiyini bildirib.

Eldar Quliyev konfransın aktual mövzuya həsr olunduğunu deyib: "Bu gün respublikamızda hər bir vətəndaşın yüksək keyfiyyətli ərzaq məhsulları ilə etibarlı təminatı, bu sahədə makroiqtisadi sabitliyə əsaslanan daha yüksək və davamlı inkişafın əldə olunması, ölkə üçün zəruri həcmdə ərzaq ehtiyatının yaradılması və onun müasir tələblər səviyyəsində idarə edilməsi dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindəndir".

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə "Azərbaycanın iqtisadi inkişaf strategiyasında ərzaq təhlükəsizliyinin yeri və rolu: reallıqlar və perspektivlər", Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Geostrateji Araşdırmalar Mərkəzinin müdiri, professor Əli Nuriyev "Azərbaycanın müasir aqrar siyasəti zəminində ərzaq təhlükəsizliyinin istiqamətləri", Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, professor Eldar İbrahimov "Müstəqil Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqaməti kimi" mövzularında məruzə ilə çıxış ediblər.

Məruzəçilər Azərbaycanda aparılan iqtisadi siyasətin uğurlu nəticələrindən danışıblar.

Sonra isveçrəli professor Mehmet Şükrü Güzel, türkiyəli professor Cengiz Güneş və digər alim və mütəxəssislərin mövzuya dair çıxışları dinlənilib.

Tədbirdə professor Eldar Quliyevə müəllifi olduğu "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər" kitabına və beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətlərinə görə İsveçrənin Cenevrə şəhərində fəaliyyət göstərən BMT-nin İctimai Mükafatlar üzrə Şurasının (UNCOPA) Beynəlxalq Mükafatlar Komitəsinin "Elm və sülhməramlı səfir" fəxri adı və eyni zamanda, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Türk dünyasında ilin alimi" beynəlxalq mükafatı təqdim olunub.

***Əsrin əvvəllərində Çar Rusiyasının zəifləməsi, iqtisadi-siyasi gərginliyin artması nəticəsində imperiyanın dağılması sürətləndi və Zaqafqaziyada bir-birinin ardınca müstəqil dövlətlər yarandı.***

Xalqımız çox böyük şansdan məharətlə istifadə edərək, 1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətini (AXC) elan etdi. Yeni dövlətin xarici və daxili siyasətini, məqsəd və vəzifələrini əks etdirən İstiqlal Bəyannaməsi qəbul edildi. Mahiyyət etibarilə parlament dövləti olan AXC dövlətin strukturunu həyata keçirmək məqsədilə Müvəqqəti hökumət və Milli Şura yaratdı.

Məlumdur ki, Azərbaycan Demokratik Cümhuriyyəti 23 ay müddətində müstəqil dövlət kimi bərqərar olmuş və bu müddət ərzində 5 dəfə hökumət kabinəsi formalaşdırılmışdır. Birinci, ikinci və üçüncü hökumət kabinələrinə F.Xoyski, üçüncü və dördüncü hökumət kabinəsinə N.Yusifbəyli rəhbərlik etmişdir. Bu zaman dövlətin iqtisadi siyasətini həyata keçirəcək nazirlik və müvafiq orqanlar təşkil edilmişdi. Qısa müddətdə Maliyyə Nazirliyi, Ticarət və Sənaye Nazirliyi, Yollar, Poçt, Teleqraf Nazirliyi, Əkinçilik və Əmək Nazirliyi, Sosial Təminat Nazirliyi formalaşdırıldı və hər nazirlik öz profilləri üzrə dövlətin iqtisadi siyasətinin həyata keçirilməsi istiqamətində işini qurmağa başladı.

### İqtisadi siyasətin əsas istiqamətləri

İlk gündən AXC-nin fəaliyyətinin üstün istiqamətlərindən birini iqtisadi siyasət təşkil etmişdir. Tarix baxımından çox az bir dövr yaşamış AXC-nin fəaliyyətinin təhlili göstərir ki, tərkibində bir nəfər də peşəkar iqtisadçı olmayan, misal üçün, Əlimərdan bəy Topçubaşov - hüquqşünas, Fətəli xan Xoyski - hüquqşünas, Nəsib bəy Yusifbəyli - publisist, Həsən bəy Ağayev - jurnalist, həkim, müəllim, Məhəmməd Yusif Cəfərov - hüquqsünas, alim, Ağa Əminov - dağ-mədən mühəndisi, Əhməd Cövdət Pepinov - hüquqşünas və s. görkəmli dövlət xadimləri Müvəqqəti hökumətdə qısa müddətdə iqtisadi sahədə heyrətləndirici dərəcədə çox iş görmüşlər. AXC-nin iqtisadi inkşafa nail olmaq üçün tutduğu strateji yolu xarakterizə edən əsas istiqamətlər aşağıdakılardır.

### 1. İqtisadi fəaliyyəti tənzimləyən normativ-hüquqi bazanın yaradılması

Bu qısa müddətdə, yəni 23 ay fəaliyyət göstərən parlament 270-dən çox qanun qəbul etmişdir ki, onunda 70-i iqtisadiyyatın tənzimlənməsi ilə bağlı qanunlardır. Bu qanunlarda, təqdim edilən layihə və smetalarda idxal-ixrac prosesinin tənzimlənməsi, aqrar, fəhlə məsələsi, məskunlaşdırma və digər sosial məsələlərinin həlli, bank-pul-kredit, vergi-gömrük işinin təşkili, kadr hazırlığı ilə bağlı məsələlərin həlli nəzərdə tutulmuşdu.

### 2. İdxal-ixrac prosesinin tənzimlənməsi

Bu sahədə də hökumət özünün məqsədyönlülüyü və səmərəliliyi ilə fərqlənir. Xarici ticarətdə üstünlük neft və neft məhsullarına verilmiş və daxili bazarın qorunması, daxili iqtisadi aktivliyi artırmaq məqsədilə ixrac və idxal olunacaq məhsulların siyahısı təsdiq edilmişdir. İdxal-ixrac prosesinin, xarici ticarət əlaqələrinin tənzimlənməsi ilə bağlı həyata keçirilən tədbirləri aşağıdakı qruplara bölmək olar:

- ölkədə əmtəə istehsalçılarının daxili bazardan sıxışdırılıb çıxarılmasına mane olmaq;
- ölkədə çatışmayan gündəlik tələbat mallarının bahalaşmasına yol verilməməsi üçün gömrük tariflərinin aşağı salınması;
- Azərbaycanın tranzit imkanlarından bəhrələnərək, Orta Asiya, Şimali Qafqaz və Rusiya, İran, Qərbi Avropa ölkələri arasında mal mübadilələrinin daha optimal təşkili.

### 3. Azərbaycanın həmin dövrdə aqrar bir ölkə və əhalinin çox hissəsinin kənd əhalisi olduğunun nəzərə alınması

Qeyd etmək lazımdır ki, Rusiyada mövcud olan müvəqqəti hökumət zamanı Zaqafqaziya seymi yaradılmışdır ki, o da Torpaq islahatı ilə bağlı qanun qəbul edilmişdir. Bu qanun o dövrdə azərbaycanlı mülkədarları ciddi narahat edirdi. Birinci addım olaraq, həmin qanunun fəaliyyəti dayandırıldı. Parlamentdə Aqrar məsələlər komissiyası yaradıldı. Əvvəlki dövrdə tutulmuş, istər xüsusi mülkiyyətdə olan, istərsə də xəzinə torpaqları adlanan torpaqlar geri qaytarıldı.

Bu sahədəki fəaliyyəti tənzimləmək məqsədilə Torpaq komitəsi yaradılmış və torpağın satınalma qiymətləri haqqında təkliflər hazırlanıb Milli Şuraya verilmişdir. Paralel olaraq parlament tərəfindən 29 maddədən ibarət qanun layihəsi hazırlanıb "Azərbaycan" qəzeti vasitəsilə ümumxalq müzakirəsinə verilmişdir.

Həmin qanunda torpağa mülkiyyət hüququnun saxlanılması ilə dövlət tərəfindən torpağın pulla satın alınıb, torpaqsız kəndlilərə verilməsi, eləcə də kəndlilərə torpaq almaq üçün güzəştli kredit verilməsi nəzərdə tutulurdu. Bu məqsədlə Aqrar Bank və əyalətlərdə onun filialları yaradılmışdır.

Parlament tərəfindən birinci növbədə əkinçilərin və fəhlələrin vəziyyətinin lazımi qədər yüngülləşdirilməsi, xırda mülklərdə mülkiyyət hüququnun tanınması, sabiq padşaha və onun nəslinə mənsub böyük mülkədarlara və xüsusi əmlak sahiblərinə mənsub torpaqların xəzinəyə götürülüb əkinçilərə, onların ailə üzvlərinin sayına uyğun paylanılması məsələlərinə baxılmışdır. Xəzinə torpaqları əvəzinə onlara xəzinədən bədəl vermək məsələsi müzakirə olunması tövsiyə edilmişdir. Bu halda torpaqların sərvətdarların əlinə keçmə təhlükəsi nəzərə alınaraq, əkinçilərə pay torpaqlarının satılmasının qadağan edilməsi məsələsi də gündəmə gətirilmişdir.

Eyni zamanda, Əkinçilik Nazirliyində aqrar islahat şöbəsinin, Azərbaycan Parlamentində Aqrar islahat komissiyasının yaradılmasında məqsəd respublika əhalisinin əksəriyyətinin maraqları ilə bağlı bir problemin həllinə xidmət edirdi. Qeyd etmək lazımdır ki, 1919-cu il fevralın 4-də parlamentdə Aqrar islahat komissiyası yaradıldı, 1920-ci il aprelin 21-dək fəaliyyətini davam etdirən komissiyanın 25 dəfə iclası olmuşdur. Bu iclaslarda aqrar problemin münasib həlli yolları ilə bağlı bir sıra layihələr müzakirə edilmiş, müxtəlif fikirlər səslənmişdir.

Deyilənlərlə yanaşı, fəhlələr üçün 8 saatlıq iş günü, müdafiə və maarif məsələlərinin aqilanə həlli ilə bağlı qanun qəbul edilməsi, füqareyi-kasibə sinfini bir çox ödənişlərdən azad edib, onların vahid gəlir vergisi ilə əvəz edilməsi məsələsinə baxılmağın zəruri olduğu qeyd edilmişdir.

Dövlət qulluğunda çalışan rüşvətxor, xain xidmətçilərin vəzifələrindən kənar edilməsi və divanı ədalətə verilməli olduğu tələb edilmişdir. Hökumətin iqtisadi platforması mülkiyyət plüralizmini, dövlət, xüsusi, şəxsi, səhmdar və bələdiyyə mülkiyyətinin inkişafı üçün bərabər imkanlar yaradılmasını nəzərdə tuturdu. 1918-ci ilin oktyabrında neft sənayesi müəssisələrinin sahiblərinə qaytarılması haqqında qərar verilərək, gəmilərin öz sahiblərinə qaytarılmasını nəzərdə tutan dekret dərc edilmişdir.

### 4. Bank, pul-kredit siyasəti

Həmin dövrdə ölkədə bir çox pul vahidlərinin dövriyyədə olması bu sahədə ciddi çətinliklər yaratmışdı. Ona görə də hökumətin bu sahədəki fəaliyyəti birinci növbədə əhalinin həyat səviyyəsinin aşağı düşməsinin qarşısının alınmasına yönəldilmiş və dövriyyəyə müstəqil dövlətin pul vahidi buraxılmışdır. Beləliklə, aparılmış tarazlaşdırılmış pul-kredit siyasəti nəticəsində dövriyyədə olan pulun emissiyası məhdudlaşdırılmış və əhalinin müflisləşməsinin qarşısı alınmışdır.

1918-ci il sentyabrın 6-da Azərbaycan, Gürcüstan və Ermənistan maliyyə-kredit əməliyyatları üçün 280 milyon rubl məbləğində Zaqafqaziya bonu buraxılması haqqında saziş imzaladılar.

1919-cu il sentyabrın 16-da Azərbaycan dövlət bankının açılması, Bank Şurası tərəfindən banklarda valyuta qəbuluna icazə verilməsi, neft sənayeçilərinə və kapital ixrac etmək istəyən sərmayəçilərə bir sıra güzəştlər edilməsi gömrük yığımlarından əldə edilən vəsaitin dövlət xəzinəsinə daxil olmasını sürətləndirdi. Həmin il noyabrın 15-də Azərbaycanla Gürcüstan arasında, əlavə olaraq 160 milyon rubl məbləğində Zaqafqaziya bonu buraxılması haqqında Tiflisdə müqavilə bağlandı.

Azərbaycan hökumətinin əsas vəzifələrindən biri maliyyə aparatının möhkəmləndirilməsi, xüsusilə dövlət gəlirlərinin artırılması, xərclərin mümkün qədər azaldılması və pul dövriyyəsinin tənzimlənməsi idi.

1920-ci il 1 may vəziyyətinə görə, Dövlət Bankının ümumi dövriyyəsi 1 milyard 354 milyon manatı ötüb keçmişdi. Qeyd edilməlidir ki, AXC-nin bütün fəaliyyəti ərzində tədavülə 2 mlrd. 34 mln. manatdan (bon) çox pul buraxılmışdır.



AXC-də tədavüldə dörd valyutadan istifadə olunmuşdur:

- Çar hökuməti tərəfindən buraxılmış rubllar; bunlar "Nikolayevski" adlandırılırdı;
- Müvəqqəti hökumətin rublları; bunlara "kerenka" deyilirdi və 1917-ci ildə 20 və 40 rubl dəyərində buraxılmış rus kağız pulları idi;
- Tiflisdə buraxılmış Zaqafqaziya bonları;
- Bakıda buraxılmış Cümhuriyyət bonları; bu bonlar 1918-ci il sentyabrın 28-də buraxılmışdı və 40 manatı 1 türk lirəsinə bərabər idi; sonralar inflyasiya nəticəsində xeyli dəyərdən düşmüşdür.

### 5. Gömrük və vergi siyasəti

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil gömrük xidmətinin yaradılmasına Azərbaycan hökumətinin 1918-ci il iyunun 22-də, yəni Cümhuriyyət yarandıqdan 24 gün sonra "Poylu stansiyasında sərhəd postunun yaradılması haqqında" qərarı ilə başlanılmışdır. Az bir müddətdə idxal-ixrac prosesini tənzimləmək məqsədilə gömrük sistemi yaradılmış, onun beynəlxalq normativlərə uyğunlaşdırılması həyata keçirilmiş və müvafiq gömrük rüsumlarının miqdarı və siyahısı təsdiq edilmişdir. 21 oktyabr 1918-ci ildə qüvvəyə minən "Müvəqqəti Tarif"ə əsasən, 57 ixrac malına gömrük rüsumu tətbiq edilmişdir. Kortəbii qaydada mövcud olan, heç bir iqtisadi əsası olmayan müxtəlif vergilər ləğv edilmiş, iqtisadi aktivliyi stimullaşdıran vergi sistemi yaradılmışdır. Burada da sosial-iqtisadi və maliyyə məsələləri ön plana çəkilmişdir. Müvəqqəti hökumətin fəaliyyəti dövründə (1920-ci il aprel) Bakı gömrükxanası üzrə xidmətə çıxan yoxlayıcıların, mövcud heyətin 90 nəfərdən ibarət olmasına baxmayaraq, tələb olduğundan çox idi, 131 nəfərə çatırdı.

1919-cu ilin birinci yarısında AXC-nin gömrük müəssisələrindən yığılan vergi və rüsumlarla (12,8 mln. manat) 1920-ci ilin son aylarını nəzərdən keçirsək (96,9 mln. manat), aparılmış məqsədyönlü siyasət nəticəsində gömrük rüsumları və vergi daxilolmalarında 6,6 faiz artım olduğunun şahidi olmuş olarıq.

Bu müddət ərzində ilk növbədə Azərbaycan Xalq Cumhuriyyətinə qədərki dövrdə olan gömrük ənənələri (təcrübəsi) təhlil edilərək, mövcud infrastruktur və normativ hüquqi bazanın AXC-nin tələblərinə uyğun yenidən qurulması istiqamətləri müəyyən edilmişdir. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, AXC hökuməti tərəfindən müstəqil xarici ticarət və gömrük siyasəti həyata keçirilmişdir.

Vergi siyasəti maliyyə siyasətində mütərəqqi gəlir vergisinin tətbiq edilməsinin əsas istiqamətlərindən birini təşkil edirdi. Həmin dövrdə dövlət büdcəsi aşağıdakı vergi növləri hesabına formalaşırdı:

- Müstəqil vergilər: torpaq vergisi, daşınmaz əmlak vergisi, dövlət gəlir vergisi, sənaye vergisi, kapital qoyuluşundan gəlir vergisi, hərbi mükəlləfiyyət vergisi, notarial vergi.
- Dolayı vergilər: tütün, papiros kağızları, şəkər, çay məhsullarından, benzin, ağ neft, sürtgü yağları və digər neft məhsullarından vergilər, gömrük rüsumları.
- Hökumət inhisarlarına aid vergilər: mədən gəliri, poçt gəliri, teleqraf gəliri, meşələrdən, balıq vətəgələrindən, pambıqçılıq təsərrüfatlarından gələn gəlirlər.
- Möhür haqqı: məhkəmə, kargüzarlıq və sənəd yazışmalarından gəlirlər.

Həmin dövrdəki ağır iqtisadi vəziyyəti Hacı Zeynalabdin Tağıyevin Nazirlər Şurasının sədri Nəsib bəy Usubbəyova 1919-cu ilin 29 iyununda yazdığı məktubdan da görmək mümkündür.

Hacı Zeynalabdin Tağıyevin məktubundan bəzi hissələri diqqətə çatdıraq:

"Zənnimcə, elə bir şərait yaranıb ki, bu şəraitdə mən sizin diqqətinizi hökumətin fəaliyyət mərkəzindən kənarda qalan bir sıra mühüm məsələlərə - maliyyə və iqtisadi siyasət məsələlərinə cəlb etmək istəyirəm...

Son aylar bizim pullarımızın məzənnəsi aşağı düşmüşdür. Manat Qərbi Avropa bazarında 2 qəpikdən az dəyərləndirilir; hətta dağılmış Rusiya imperiyasının və mövcud olmayan Kerenski hökumətinin pulları da Azərbaycanın paytaxtında 3, 4 və 5 dəfə artıq qiymətə malikdir.

Mal ixracına qoyulmuş qadağalar milli valyutanın tamamilə qiymətdən düşməsinə gətirib çıxarmışdır. İdxal-ixrac əməliyyatları üzərində sərt nəzarət, mal mübadiləsinin məhdudlaşdırılması sərmayə sahiblərinə ciddi çətinlik gətirir".

### 6. Qanunsuzluğa qarşı mübarizə məsələsi

AXC rüşvətxorluğa və xain xidmətçilərə qarşı da mübarizəyə başlamışdı.

Rüşvətxor və xain xidmətçilərin məqamlarından kənar edilməsinə və divanı ədalətə verilməsinə və ərzaq möhtəkirləri və müstəbidlərin əlindən xalqın xilas edilməsinə, taxıl, çit, ağ, qənd, çay, sabun kimi həyati məhsullarla xalqı sınağa çəkənlərə qarşı barışmaz mübarizəyə başlanılmışdı.

### 7. Kadr hazırlığı məsələsi

İlk gündən Milli Şurada kadr hazırlığı diqqət mərkəzində olmuşdur. Onun qərarında 100 nəfər tələbənin ölkədən xaricdə dövlət hesabına təhsil almağa göndərilməsi qərara alınmışdı. Rusiyada təhsil alması nəzərdə tutulan 13 nəfərdən başqa qalanların hamısı həmin dövrdə göndərilmişdir. Bu isə o dövrdə Rusiyadakı ictimai-siyasi vəziyyətin mürəkkəb olduğuna görə həyata keçirilməmişdir.

Cümhuriyyət dövründə üçpilləli təhsil sistemini əhatə edən geniş təhsil şəbəkəsinin yaradılması nəzərdə tutulurdu və bu məqsədin reallaşdırılması üçün bir ali məktəb - Bakı Dövlət Universitetinin təsis edilməsi mümkün olmuş, digər ali təhsil məktəbi - Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun yaradılması istiqamətində xeyli işlər görülməkdə idi. Bakı şəhərində Ali Kənd Təsərrüfatı İnstitutunun təsis edilməsini nəzərdə tutan layihə işlənib hazırlanmış, smeta-layihə sənədlərinin parlamentdə müzakirə edilməsi nəzərdə tutulmuşdu.

Yeni yaradılacaq institutun proqramında yerli xüsusiyyətləri nəzərə almaqla, Qərbi Avropada və Rusiyanın Avropa hissəsində fəaliyyət göstərən müvafiq Ali məktəblərlə eyni səviyyəli Elm və Təhsil Mərkəzinin fəaliyyət göstərməsi diqqətdə saxlanılırdı. Respublikanın şəhər və qəsəbələrində, kəndlərində orta təhsil məktəbləri, peşə kursları yaradılırdı.

Həmin dövrdə ali və orta təhsil məktəbləri, peşə məktəbləri Təhsil Nazirliyinin tərkibində yaradılmış 3 şöbə tərəfindən idarə olunurdu. Həmin şöbələrə təhsil ocaqlarında inzibati və pedaqoji işin vəziyyətinin yoxlanılması, mövcud və yeni yaradılacaq məktəblərin smeta sənədlərinin hazırlanması həvalə edilmişdi.

**Akif Musayev, i.e.d., prof.,**
**AMEA-nın müxbir üzvü,**
**AMEA İqtisadiyyat İnstitutu**

# «Azəraqrartikinti» ASC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

| № | Göstəricilər | Qeydlər | 2017 | 2016 |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | | 0,00 | 0,00 |
| 11 | Torpaq, tikili və avadanlıq | 6 | 906862,00 | 72792,00 |
| 12 | Daşınmaz əmlakla investisiyalar | | 0,00 | 0,00 |
| 13 | Bioloji Aktivlər | | 0,00 | 0,00 |
| 14 | Təbii sərvətlər | | 0,00 | 0,00 |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | 0,00 | 0,00 |
| 16 | Tarixə salınmış vergi aktivləri | | 0,00 | 0,00 |
| 17 | Uzunmüddətli debitor borcları | | 0,00 | 0,00 |
| 18 | Sair üzunmüddətli maliyyə aktivləri | | 0,00 | 0,00 |
| 19 | Sair uzunmüddətli aktivlər | | 0,00 | 0,00 |
| | **Cəmi uzunmüddətli aktivlər** | | **906862,00** | **72792,00** |
| 2 | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | 7 | 0,00 | 3470,00 |
| 21 | Qısamüddətli debitor borcları | | 0,00 | 0,00 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 4944141,00 | 5276397,00 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | 0,00 | 0,00 |
| 24 | Sair qısamüddətli aktivlər | 9 | 16927551,00 | 7733404,00 |
| | **Cəmi qısamüddətli aktivlər** | | 21871692,00 | 13013271,00 |
| | **Cəmi aktivlər** | | 22778554,00 | 13086063,00 |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| 3 | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 10 | 1217685,00 | 1217685,00 |
| 31 | Emissiya gəliri | | 0,00 | 0,00 |
| 32 | Geri alınmış kapital (səhmlər) | | 0,00 | 0,00 |
| 33 | Kapital ehtiyatları | 11 | 1300026,00 | 0,00 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 12 | 2090841,00 | 0,00 |
| | **Cəmi kapital** | | **4608552,00** | **1217685,00** |
| 4 | Uzunmüddətli öhdəliklər | | | |
| 40 | Üzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 13 | 600000, | 0,00 |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | 0,00 | 0,00 |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | 0,00 | 0,00 |
| 43 | Uzunmüddətli kreditor borcları | | 0,00 | 00,00 |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | 0,00 | 0,00 |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | **600000,0** | **0,00** |
| 5 | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | 0,00 | 0,00 |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | 0,00 | 0,00 |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | 0,00 | 0,00 |
| 53 | Qısamüddətli kreditor borcları | 14 | 4500323,00 | 11868378,00 |
| 54 | **Sair qısamüddətli öhdəliklər** | **15** | **13069679,00** | **0,00** |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | 17570002,00 | 11868378,00 |
| | **Cəmi öhdəliklər** | | **18170002,00** | **11868378,00** |
| | **Cəmi kapital və öhdəliklər** | | **22778554,00** | **13086063,00** |

| Bölmənin maddənin N-si | Göstəricilər | 2017 | 2016 |
|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | 75326272.00 | 50409437.00 |
| 70 | Satışın maya dəyəri | -73701239.00 | - 49401248.00 |
| | Ümumi mənfəət | 1625033.00 | 1008189.00 |
| 61 | Sair əməliyyat gəlirləri | 0.00 | 0.00 |
| 71 | Kommersiya xərcləri | 0.00 | 0.00 |
| 72 | İnzibati xərclər | 0.00 | 0.00 |
| 73 | Sair əməliyyat xərcləri | 0.00 | 0.00 |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından mənfəətlər (ziyanlar) | 0.00 | 0.00 |
| | **əməliyyat mənfəəti (zərəri)** | 1625033.00 | 1008189.00 |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | 0.00 | 0.00 |
| 81 | (zərərlərdə) pay | 0.00 | 0.00 |
| | **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | 1625033.00 | 1008189.00 |
| 90 | Mənfəət vergisi | 325007.00 | 201638.00 |
| | Adi fəaliyyətdən mənfəət (zərər) | 0.00 | 0.00 |
| 64 və 76 | Fövqəladə mənfəət | 0.00 | 0.00 |
| 80 | **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | 1300026.00 | 806551.00 |
| | Hər bir səhmin mənfəəti | | |
| | Qatılmış hər bir səhmin mənfəəti | | |

| Göstəricilər | Ödənilmiş nizamnamə kapitalı | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | CƏMİ |
|---|---|---|---|---|
| 01.01.2016-cı ilə qalıq | 1216610.00 | 4398575.48 | 2960279.00 | 8575464.48 |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | |
| 01.01.2016-cı ilə düzəlişlərdən sonraqalıq | 1216610.00 | 4398575.48 | 2960279.00 | 8575464.48 |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | |
| Məzənnə fərqi | | | | |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 1075.00 | 806551.00 | 806551.00 | 1614177.00 |
| Mülkiyyətçinin kapital qoyuluşları | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bolüşdürülməsi (dividendlər) | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | |
| Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 31.12.2016-cı il tarixinə qalıq | 1217685.00 | 5205126.48 | 3766830.00 | 10189641.48 |
| Kapitalın maddələr arasında köçürülmələri | | | | |
| 31.12.2016-cı il tarixə qalıq | 1217685.00 | 5205126.48 | 3766830.00 | 10189641.48 |
| 2016-cı il üzrə kapitalda dəyişiklik | 1075.00 | 806551.00 | 806551.00 | 1614177.00 |
| 01.01.2017-ci il tarixə qalıq | 1217685.00 | 5205126.48 | 3766830.00 | 10189641.48 |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | |
| 01.01.2017-ci ilə düzəlişlərdən sonra qalıq | 1217685.00 | 5205126.48 | 3766830.00 | 10189641.48 |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | |
| Məzənnə fərqi | | | | |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 0.00 | 1300026.00 | 1300026.00 | 2600052.00 |
| Mülkiyyətçinin kapital qoyuluşları | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bolüşdürülməsi (dividendlər) | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | |
| Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 31.12.2017-ci il tarixə qalıq | 1217685.00 | 6505152.48 | 5066856.00 | 12789693.48 |
| Kapitalın maddələr arasında köçürülmələri | | | | |
| 31.12.2017-ci il tarixə qalıq | 1217685.00 | 6505152.48 | 5066856.00 | 12789693.48 |
| 2017-ci il üzrə kapitalda dəyişiklik | 0.00 | 1300026.00 | 1300026.00 | 2600052.00 |

| GÖSTƏRİCİLƏR | 2017 | 2016 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 75326272,00 | **50409437,00** |
| Aşağıdakı maddələr üzrə düzəlişlər | 0,00 | 0,00 |
| Azlıq təşkil edən mülkiyyətçilərin payı | 0,00 | 0,00 |
| Fövqəladə gəlirlər və xərclər | 0,00 | 0,00 |
| Mənfəət vergisi üzrə xərclər | 325007,00 | 201638,00 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | | 0,00 |
| İnvestisiya fəaliyyəti və ya maliyyəşdirmə üzrə fəaliyyətə aid digər maddələr | 0,00 | 0,00 |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər | | |
| Ehtiyatların (artması) azalması | 0,00 | -7642004,00 |
| əməliyyat debitor borcları və gələcək dövrlərin xərclərinin azalması (artması) | 0,00 | 0,00 |
| əməliyyat kreditor borcları və hesablaşmaların artması (azalması) | -5701624,00 | -10703959,00 |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | 0,00 | 0,00 |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | -325007,00 | -201638,00 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **69624648,00** | **32063474,00** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəflər ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları | -332256,00 | -4222838,00 |
| Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | 0,00 | 0,00 |
| Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin daxilolmaları | 0,00 | 0,00 |
| Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların satışından yaranan pul vəsaitlərinin daxilolmaları | 0,00 | 0,00 |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları | 0,00 | 0,00 |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | 0,00 | 0,00 |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | 0,00 | 0,00 |
| Fyuçers, forvard opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin xaricolmaları | 0,00 | 0,00 |
| Fyuçers, forvard opsion və svop müqavilələrindən yaranan pul vəsaitlərinin daxilolmaları | 0,00 | 0,00 |
| Dividendlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları | 0,00 | 0,00 |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | 0,00 | 0,00 |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | 0,00 | 0,00 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-332256,00** | **-4222838,00** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | 0,00 | 0,00 |
| Müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları | 0,00 | 0,00 |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | 0,00 | 0,00 |

***SƏRBƏST AUDİTOR***
***Musayev Adıgözəl Maqsud oğlu***
*VÖEN 1900227672*
Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən
*Auditə İcazə № SA/039 - Verilmə tarixi 16.09.2016*
*Bakı şəhəri, Yasamal rayonu. D.Bünyatzadə küçəsi, ev 15, mənzil. 273.*
*Telefon: İş; (012) 5331960; mobil: (050;055) 3130599*

**№ 18/61** **"17" aprel 2018-ci il**

**MÜSTƏQİL AUDITOR HESABATI**

**Rəy**
Mən "Azəraqrartikinti" Açıq Səhimdar Cəmiyyətinin (VÖEN 1300066691) 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətinin hesabatdan. məcmu gəlirlər hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.
Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**
Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki. əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**
Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır
Maliyyə hesabatlarını hazırladıqda. rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda. rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**
Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi. dələduzluq və ya səhvlər nəticəsində. əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir. lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda. BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda. əhəmiyyətli hesab edilir.

**Sərbəst Auditor:** ________ **Adıgözəl Musayev**

## Dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir




İyunun 5-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, Təhsil Nazirliyi, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) və Avrasiya Patent Təşkilatının birgə əməkdaşlığı ilə "Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi" mövzusunda beynəlxalq konfrans keçirilib.
Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ali məktəblərin rektorları, beynəlxalq təşkilatların rəhbərləri və nümayəndələri, elm və təhsil ictimaiyyətinin təmsilçiləri iştirak ediblər.
Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov ÜƏMT-in baş direktoru Frensis Qarrinin Bakıya səfərini yüksək dəyərləndirib, bu qurumla əməkdaşlığın uğurlu nəticələrindən söz açıb. Bildirilib ki, hazırda ölkəmizdə Əqli Mülkiyyət Agentliyi, Təhsil Nazirliyi və ÜƏMT-in birgə hazırladığı "Universitet və elmi-tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üçün milli layihə" həyata keçirilir. Bu layihə ölkəmizdə elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılması, tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi, yaradılan yüksək texnologiyaların iqtisadiyyatda tətbiqi üçün əlverişli şəraitin yaradılması və iqtisadi səmərəsinin artırılması məqsədlərinə xidmət edir. Bununla bağlı 2017-ci ildə Birgə Bəyannamə imzalanıb.
Ölkə miqyasında aparılan islahatlar əqli mülkiyyət sahəsinə müsbət təsirini göstərir. Belə ki, Rəqabətqabiliyyətlilik İndeksinin "Əqli mülkiyyətin qorunması" alt göstəricisi üzrə Azərbaycan 37-ci yeri tutur. Bununla da Azərbaycan 2016-2017-ci illərlə müqayisədə "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə tutduğu 71-ci yerdən 34 pillə yüksələrək, MDB ölkələri sırasında lider mövqeyini möhkəmləndirib.
Ölkəmizin kreativ iqtisadiyyatının (müəlliflik və əlaqəli hüquqlara əsaslanan sənayemiz) ÜDM-dəki payı beş faizi ötüb, dünyanın orta səviyyəsindədir, hətta bir sıra inkişaf etmiş ölkələri geridə qoyur.
Prezident İlham Əliyevin uğurlu xarici siyasəti və dəstəyi nəticəsində Azərbaycan əqli mülkiyyət sahəsində fəal beynəlxalq əməkdaşlıq aparır, müəlliflik və oxşar hüquqlar sahəsində 6, sənaye mülkiyyətinə aid 11 beynəlxalq çoxtərəfli konvensiya və sazişlərdə iştirak edir. Hazırda ÜƏMT-in müəlliflik hüququna aid iki yeni müqaviləsinə – Mərakeş və Pekin müqavilələrinə qoşulma prosesi gedir, həmçinin sənaye mülkiyyəti ilə bağlı üç sazişə qoşulmaq planlaşdırılır.
Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əqli mülkiyyət prioritet istiqamət kimi qəbul edilib və sənədə bu sahənin inkişafı ilə bağlı səkkiz tədbir daxil edilib.
Ölkə Prezidentinin 2018-ci il 20 aprel tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılıb.
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə bildirib ki, ölkədə elm siyasətini, o cümlədən uzunmüddətli elmi-tədqiqat işlərini AMEA həyata keçirir, rəqabətə davamlı innovasiya iqtisadiyyatının formalaşmasında bu təşkilatın rolu böyükdür. Dünya təcrübəsində elm-biznes əməkdaşlığının xüsusi əhəmiyyət verildiyi məqamlardan biri də elmi-tədqiqat institutlarının tərkibində texnoparkların yaradılmasıdır. Dövlətimizin başçısının 2016-cı il 8 noyabr tarixli müvafiq Sərəncamı ilə yaradılan "AMEA Yüksək Texnologiyalar Parkı" bu istiqamətdə atılan çox vacib addımlardan biridir. Elm-biznes əməkdaşlığının formalaşdırılması istiqamətində real işlər görən AMEA və onun nəzdində yaradılan Yüksək Texnologiyalar Parkı qısa müddətdə bir sıra işləri uğurla həyata keçirib.

## UNEC Yunus Sosial Biznes Mərkəzi təqdim edir: "Sosial biznes və sahibkarlıq"

UNEC-də "Sosial biznes və sahibkarlıq" proqramının final mərhələsi keçirilib.
UNEC-in Yunus Sosial Biznes Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə Beynəlxalq Avrasiya Mətbuat fondunun (BAMF) sədri Umud Mirzəyev, "Kutvan Project Group"un təsisçisi Ali Kutvan, dövlət və özəl qurumların nümayəndələri iştirak ediblər.
UNEC-in beynəlxalq əlaqələr və proqramlar üzrə prorektoru, dosent Anar Rzayev "Sosial biznes və sahibkarlıq" proqramı barədə ətraflı məlumat verərək, bildirib ki, tələbələr müsabiqəyə təhsil, texnologiya, kənd təsərrüfatı və səhiyyə sahəsinə dair 12 sosial biznes ideya təqdim ediblər. İdeya müəllifi olan komandalar "HUMAN Foundation"in dəstəyi ilə nüfuzlu qurumlarda altı həftəlik mentorluq proqramına qatılıblar. Sosial biznesin ölkələrin iqtisadi inkişafında və cəmiyyətdə gəlirlərin daha ədalətli bölgüsündə mühüm rol oynadığını vurğulayan A.Rzayev iştirakçılara uğurlar arzulayıb.
Gənclərin sosial biznes və startap fəaliyyətinə təşviq edilməsinin vacibliyindən bəhs edən BAMF-nin sədri Umud Mirzəyev bunun bir ənənəyə çevrilməsinin əhəmiyyətini vurğulayıb. O, bu istiqamətdə fəaliyyətin gücləndirilməsinin Azərbaycan iqtisadiyyatına da mühüm töhfələr verə biləcəyini diqqətə çatdırıb.
UNEC Yunus Sosial Biznes Mərkəzinin rəhbəri Fəridə Əsgərzadə mərkəz haqqında məlumat verib.
O, Nobel mükafatçısı Məhəmməd Yunusun Azərbaycana səfəri çərçivəsində yaradılan mərkəzin sosial biznesin araşdırılması, akademik tədqiqatların aparılması sahəsində həyata keçirdiyi işlərdən söz açıb.
"Sosial biznes və sahibkarlıq" proqramının reallaşmasında maliyyə dəstəyi isə "Gilan Holding"ə məxsusdur.




# "Motivasiyalı işçi" təlimi keçirildi



2 iyun 2018-ci il tarixində "AtaTravel" MMC-nin kollektivi üçün "Motivasiyalı işçi" təlimi keçirildi. Təlimi "Opalus Partners" şirkətinin rəhbəri Çimnaz Qasımova keçirdi. Təlimdə uğurun sirləri, iş yerində motivasiyalı olmaq və qarşıya çıxan çətinlikləri həll etməyin yolları müzakirə olundu. Həmçinin, əməkdaşların motovasiyasının yüksəldilməsi üçün istifadə olunan müxtəlif metodlar haqqında danışıldı.Təlim iştirakçıları mövzu ilə bağlı praktiki tapşırıqlar etdilər. Təlim iştirakçılarına "Opalus Partners" şirkəti tərəfindən sertifikatlar təqdim edildi.

"AtaHolding" Korporativ Kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova tədbirlə bağlı bildirdi ki, "AtaTravel" MMC daim əməkdaşların müxtəlif təlimlərdə iştirakını təmin edir. Əməkdaşlar Azərbaycanının daxilində və xaricində keçirilən təlimlərdə iştirak edirlər.

"AtaHolding" Şirkətlər Qrupunun turizm sektorunda "AtaTravel" MMC, "AtaTurizm" və "Excelsior Hotel & Spa Baku" oteli fəaliyyət göstərir. 2011-ci ildə təsis edilmiş "AtaTravel" turizm agentliyi dünyanın istənilən yerinə səyahət xidmətləri təklif edir. Şirkət öz müştərilərinə otel, uçuşlar, köçürmələr, əvvəlcədən sifariş, sığorta və viza ilə əlaqədar xidmətlər göstərir.

# Paytaxtda əsas kapitala yönəldilmiş vəsaitlərin 48,8 faizi qeyri-dövlət sektorunun payına düşüb



Cari ilin ilk 4 ayında paytaxtın iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 3679,5 mln. manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15,8 faiz az vəsait yönəldilib.

Ümumi sərmayənin 51,2%-i dövlət, 48,8%-i qeyri-dövlət sektorunun sərmayədarlarının payına düşüb.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 69,5%-i tikinti-quraşdırma işlərinə sərf edilib.

# Sahibkarlara müraciət

Qida Təhlükəsizliyi Agentliyinin sahibkarlara növbəti müraciəti əhalinin sağlam ət və ət məhsulları ilə təmin olunması ilə bağlıdır. Müraciətdə deyilir:

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi qida zəncirinin bütün mərhələlərində iştirak edən hər bir sahibkarlıq subyektinin qida təhlükəsizliyinin təmin olunması proseslərində iştirakına yüksək qiymət verir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, heyvan mənşəli qida məhsulları



və onların istifadəsi qida zəncirinin yüksək risk dərəcəsinə malik olan sahəsidir. Ona görə də əhalinin sağlam qida məhsulları ilə təmin olunmasında ət kəsimi məntəqələrinin və bu istiqamətdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin üzərinə böyük məsuliyyət düşür.

Bu məsuliyyətdən irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün ət kəsimi məntəqələrinin əhalinin qida təhlükəsizliyi tələblərinə, gigiyenik normalara uyğun formada fəaliyyətini həyata keçirməsi zərurəti meydana çıxır. Hazırkı şəraitdə bu sahədə səliqə-səhmanın yaradılması üçün sanitar-gigiyenik tələblərə cavab verən mərkəzləşmiş ət kəsimi məntəqələrinin yaradılmasına ehtiyac var.

Qida Təhlükəsizliyi Agentliyi tərəfindən bu istiqamətdə fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün lazım olan bütün köməkliklər həyata keçiriləcək.

Unutmaq olmaz ki, insanların sağlam qida məhsulları ilə təmin olunması, qida təhlükəsizliyi şəraitində yaşaması sosial rifahı təşkil edən əsas amillərdən biridir.

# "Bakcell"in dəstəyilə daha iki gənc kiçik biznes qurdu

Gəncədə işə başlayan gənclər "SOS Uşaq Kəndləri"nin himayəsində böyüyüblər.

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkətinin "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İctimai Birliyi ilə həyata keçirdiyi layihə sayəsində daha iki gənc öz kiçik biznesini qurub.




"Bakcell"in dəstəyi sayəsində icra olunan "Gənclərin Karyera və İnkişaf Mərkəzi" layihəsində öz biznes planı ilə fərqlənmiş layihələrdən birinin – "Meyvə bazarı" dükanının açılışı Gəncə şəhərində baş tutub. Şirkət "SOS Uşaq Kəndləri"nin himayəsində böyümüş gənclərin biznes ideyalarını reallaşdırmaq üçün maliyyə vəsaiti ayırıb.

"Bu gənclər öz bacarıqları və əzmləri ilə böyük uğura imza atıblar. Bakcell şirkəti olaraq, bu uğurun bir parçası olmaqdan qürur duyuruq. İnanırıq ki, pilot layihəmizdə iştirak edən gənclərin göstərdiyi nəticə başqa gənclər üçün də gözəl nümunə olacaq", - deyə Bakcell şirkətinin İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiyalar Departamentinin rəhbəri Süheylə Cəfərova bildirib.

Layihə çərçivəsində biznes planın hazırlanması üzrə təlim keçən, Beynəlxalq Əmək Təşkilatının master təlimçisi Azad Rəhimov Bakcell şirkətinin bu layihədə iştirakını yüksək dəyərləndirib: "Uzun illərdir ki, Azərbaycanda müxtəlif layihələr çərçivəsində gənclərin biznes ideyalarının reallaşmasına dəstək göstəririk.

Mən çox sevinirəm ki, yerli təşkilatlar və bizneslər arasında ilk olaraq Bakcell şirkəti ölkədə gənclərin sahibkarlığına bu şəkildə dəstək göstərdi".

Yeni dükanın sahibləri Kamran Hüseynov və Mahal Quliyev Gəncə şəhərində bir müddət meyvə-tərəvəz ticarəti ilə məşğul olub və bu işi yaxşı mənimsəyiblər. Layihə ideyasının qymətləndirilməsində əsas meyarlardan biri də onların bu sahədəki təcrübəsi olub.

"Öz biznesinə başla və təkmilləşdir" layihəsi bizim üçün çox faydalı oldu.

Bizim bu sahədə təcrübəmiz var idi, lakin təlimlər vasitəsilə öz bilik və bacarıqlarımızı inkişaf etdirdik. Eyni zamanda, öz biznesimizi qurmaq üçün bizə maliyyə vəsaitinin ayrılmasını çox yüksək dəyərləndiririk. Çalışacağıq ki, bizə göstərilən etimadı doğruldaq", - deyə Kamran Hüseynov bildirib.

# Bakcell və ENGINET uşaqları internetdəki arzuolunmaz məzmundan qoruyur

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell"in təxminən iki il bundan əvvəl istifadəyə verilmiş və uşaqlar üçün internetdən istifadənin daha təhlükəsiz olmasını təmin edən internet paketləri artıq 4G şəbəkəsində də fəaliyyət göstərir. Bu internet paketləri və Azərbaycanın ilk FTTH provayderi olan ENGİNET şirkətinin "İnternet Filtrasiya Xidməti" sayəsində Bakcell abunəçiləri öz uşaqlarının internetdən təhlükəsiz istifadəsini təmin edə və onları zərərli və istənilməyən məzmundan qoruya biləcəklər.

"Uşaqların təhsili və inkişafında İnternetin rolu çox böyükdür. Lakin biz valideynlər uşaqlarımızın internetdən necə istifadə etmələrinə hər an nəzarət edə bilmirik. İnternet mühitində uşaqlarımızın diqqətindən uzaq saxlamaq istədiyimiz xeyli zərərli məzmun var. Buna görə də Bakcell və ENGİNET valideynlərə arzuolunmaz veb-səhifələri filtrdən keçirmək və onlara girişi məhdudlaşdırmaq imkanı verib. Bu məhsula tələbat günü-gündən artmaqdadır. Bakcell ENGİNET ilə birgə virtual dünyanı uşaqlarımız üçün daha təhlükəsiz etmək üçün bu gözəl fürsəti yaradıb", - deyə Bakcell şirkətinin baş marketinq direktoru Todor Dimitrovski bildirib.

Xatırladaq ki, ENGİNET şirkəti tərəfindən istifadə edilən filtrasiya sistemi tərkibində uşaqlar üçün zərərli informasiya daşıyan 90 tematik qrup üzrə 18 milyon veb-səhifəyə çıxışı məhdudlaşdırır. "Təhlükəsiz İnternet Paketləri"ni alan Bakcell müştəriləri daxil olduqları veb-səhifələri filtrasiya edərək, öz uşaqlarını böyüklər üçün nəzərdə tutulmuş məzmun, qeyri-qanuni və yaxud zorakılıq əlamətləri olan məlumatlar, narkotik və dərman vasitələri və digər zərərli məzmunlardan qoruya biləcəklər.




"ENGİNET Azərbaycanda ilk şirkətdir ki "İnternet Filtrasiya Xidməti"ni fərdi bazarda təklif edir və bizim peşəkar komandamız bu məhsulu daha da keyfiyyətli etmək üçün vaxtaşırı olaraq müvafiq yenilənmə işləri həyata keçirir. Dünyada hər gün bir milyondan artıq veb-səhifə yaradılır və bizim də "qara siyahı" sistemimiz buna uyğun olaraq gündəlik yenilənir. Bu yaxınlarda isə axtarış sistemimizə "qara açar sözləri" üzrə daha bir yenilik tətbiq ediləcək", - deyə ENGİNET şirkətinin Marketinq şöbəsinin rəhbəri Elmira Abasova bildirib.

Qeyd edək ki, ENGİNET şirkəti Azərbaycan Respublikasının Təhsil Nazirliyinin köməyi ilə ölkə məktəblərində Təhlükəsiz İnternet Layihəsinin icrasına başlayıb. Layihənin ilkin mərhələsində Sumqayıt şəhərinin orta məktəblərində "Təhlükəsiz İnternet" mövzusunda açıq dərslər təşkil edilir.

Uşaqlarınızı arzuolunmaz məzmundan müdafiə etmək üçün siz sadəcə *134#10#YES- yığaraq Bakcell şirkətinin təklif etdiyi Təhlükəsiz İnternet Paketlərini əldə etməlisiniz. 10 GB təhlükəsiz internet paketinin qiyməti 10 AZN təşkil edir. Bu paket mobil telefon və ya noutbuk kimi istənilən cihazlarda istifadə oluna bilər. Aktivləşdirmə prosesində arzuolunmaz məzmun sistem vasitəsilə sizin mobil internet paketinizdən avtomatik olaraq filtrasiya ediləcək.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500